DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 05 (334) / MAY 2019-CU İL

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ DƏRİN MİLLİ-MƏNƏVİ TƏMƏL ÜZƏRİNDƏ MÜASİR DÖVLƏT QURMUŞUQ



***Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.***

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.

***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə mərasim iştirakçılarını salamlayaraq deyib:***

- Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm cənab Prezident İlham Əliyev.

Dəyərli qonaqlar.

Allah-Təalanın mübarək Ramazan ayının iftar süfrəsində Sizləri salamlayır, qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Burada iştirak edən dəyərli din və dövlət xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin nümayəndələrinə təşəkkür edirəm.

Qurani-Kərimin nazil olduğu, duaların qəbul edildiyi mübarək Ramazan ayında iftar mərasimində Sizinlə görüşmək böyük dəyər kəsb edən əlamətdar ənənəyə çevrilib. Bu qardaşlıq məclisini bizlərə böyük insan, dahi dövlət xadimi, mənim unudulmaz, əziz qardaşım Ulu Öndər Heydər Əliyev əmanət edib.

Hər il biz Heydər Əliyev şəxsiyyətinin dəyər və miqyasını, ucalıq və müdriklik zirvəsini bir daha kəşf edir, əziz xatirəsini böyük ehtiramla yad edirik. Ulu Öndər bizə müstəqil dövlət, möhkəm din-dövlət münasibətləri, nadir multikultural mədəniyyət nümunəsini əmanət edib. Xalqımıza, dövlətimizə müdrik rəhbər bəxş etmiş dahi Heydər Əliyevə və möhtərəm Zərifə xanıma Allah rəhmət eləsin, ruhları şad olsun.

Zati-aliləri, Azərbaycan torpağına qədəm basan hər kəsin şahidi olduğu tərəqqi və uğurların təməlində Sizin – dövlətimizin başçısının fəaliyyəti və müdrik siyasəti durur. Sizin həyata keçirdiyiniz siyasətin yaşam gücü dövlət-xalq birliyində, Prezident-vətəndaş həmrəyliyindədir. Bu, həm siyasi, həm mənəvi baxımdan ən düzgün yoldur.

Azərbaycan tarixən dinlərarası tolerantlıq və multikulturalizm mühitinin təşəkkül tapmasına böyük önəm verib. Mədəniyyətlərarası əməkdaşlığa dair onillik tarixə malik "Bakı Prosesi"nin müəllifi məhz dövlətimizin başçısı möhtərəm İlham Əliyevdir. Azərbaycanın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə diqqəti və himayəsi Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət edir, dünyaya təqdim olunan Azərbaycan modeli sivilizasiyalararası dialoq, dinlər və mədəniyyətlərarası əməkdaşlığın inkişafına öz töhfəsini verir.

Möhtərəm cənab Prezident, biz Sizin dünya səviyyəsində qəbul olunan qlobal ideyalarınızdan ilham alaraq bir çox beynəlxalq tribunalardan Azərbaycanın multikulturalizm və tolerantlıq modelini böyük qürurla təqdim edirik.

Zati-alinizin xeyir-duası və təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin məramı nadir multikulturalizm modelinin yaradılmasına və inkişafına dair qlobal ideyalarınızı təbliğ etməkdir. Məhz bu məramla, İnşallah, bu ilin iyununda Mərkəzimiz tərəfindən BMT-nin Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinin, habelə Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAİCİİD) həmtəşkilatçılığı, Azərbaycanın Avstriyadakı səfirliyinin,

davamı səh. 2

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ DƏRİN MİLLİ-MƏNƏVİ TƏMƏL ÜZƏRİNDƏ MÜASİR DÖVLƏT QURMUŞUQ

əvvəli səh. 1

Avstriya dövlətinin ali dəstəyi və iştirakı ilə Vyanada 10-dan artıq beynəlxalq təşkilatın, 40-a yaxın ölkənin 300-ə yaxın din və dövlət nümayəndəsinin, elm və ictimaiyyət xadiminin iştirak edəcəyi beynəlxalq konfrans keçiriləcəkdir.



Dünyanın bir çox ölkələrində mənəvi dəyərlərə qarşı savaş açıldığı, islamofobiya, antisemitizm zəminində təqiblərin, terrorun, ekstremizm və radikallığın artdığı mürəkkəb zamanda müxtəlif qitə nümayəndələrinin, din və mədəniyyət təmsilçilərinin Azərbaycan Prezidentinin elan etdiyi mulikulturalizm, İslam həmrəyliyi kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi dövlətimizin uğuru və Sizin siyasətinizin təntənəsidir. Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni sahələrdə liderliyi ilə yanaşı, dünya çapında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfələr verən multikulturalizm mərkəzi kimi tanınmaqdadır. Beynəlxalq ictimaiyyəti narahat edən problemlərin həlli yönündə dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri arasında səmərəli fikir mübadiləsi üçün Azərbaycanda dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi ilə əməkdaşlıq çərçivəsində Zati-alinizin irəli sürdüyü istiqamətlər yönündə yeni əməli layihələr üzərində işləyirik.

Fərəhləndirici haldır ki, ölkəmiz 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş birinci Sammitinin davamı olaraq sivilizasiyalararası dialoqun inkişafına daha bir töhfə verməyə hazırlaşır. Zati-alinizin Dünya Dini Liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə Sərəncamı, heç şübhəsiz, tarixi bir qərar oldu. Müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə önəmli töhfə olacaq bu beynəlxalq tədbirin dəyərini zaman və dünya ictimaiyyəti verəcəkdir.

Zati-aliləri, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım Ulu Öndərin Bibiheybətdən başlatdığı ali mənəviyyat yoluna sadiqliyinizi hər zaman əməli səylərinizlə nümayiş etdirirsiniz.

Ali himayənizi heç vaxt əsirgəmədiyiniz, xalqımız üçün müqəddəs məkan sayılan Təzəpir məscidinin ətrafında aparılan abadlaşdırma işləri, genişləndirilən ərazidə salınan möhtəşəm park, məscidin ilkin tarixi layihəsinə uyğun yenidən qurulması barədə iradəniz - bütün bunlar milli-mənəvi dəyərlərimizə, tariximizə olan yüksək qayğının təzahürü, xalqımıza böyük hədiyyədir. Zati-alinizin mənəvi irsimizə sahib çıxaraq XX əsrdə Vladiqafqazda azərbaycanlı xeyriyyəçi Muxtarov tərəfindən inşa edilmiş məscidi tam bərpa etdirməniz isə bütün Qafqaz bölgəsi müsəlmanlarına, orada yaşayan soydaşlarımıza böyük hədiyyədir.

Möhtərəm cənab Prezident, Zati-alinizə xas olan yüksək mənəvi xüsusiyyətlərdən biri də odur ki, Siz təkcə İslamın deyil, bütün dinlərin dini-mədəni irs nümunələrinə sahib çıxaraq, ölkəmizdəki, həmçinin ölkə xaricindəki istər xristian, istər yəhudi məbədlərinə eyni dərəcədə diqqət və himayə göstərirsiniz.

Peyğəmbərimiz Məhəmməd Salavatullahın hədisində buyurulur ki, insanların ən xeyirlisi xalq üçün daha faydalı olanıdır. Zati-aliləri, Azərbaycanın iqtisadi qüdrətinin artırılması yönündə səyləriniz, beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrində fəal iştirakınız, sosial layihələrə verdiyiniz dəstək xalqımızın rifahına, dövlətimizin mənafelərinə xidmət edir. Siz və Mehriban xanım bütün vətəndaşlara həyatın ən çətin məqamlarında - təbii fəlakətlərdə, yanğınlarda, baş verən faciələrdə yüksək insani dəyər verir, onların problemlərinə diqqətlə yanaşırsınız. Dünyanın inkişaf etmiş dövlətlərinin miqrant böhranını aradan qaldıra bilmədiyi bir dövrdə Siz, möhtərəm cənab Prezident, Azərbaycanın qaçqın və məcburi köçkünləri üçün böyük qayıdış planları həyata keçirirsiniz. Cocuq Mərcanlıda Zati-alinizin inşa etdirdiyi məscidin, aparılan quruculuq işlərinin mənəvi önəmi xalqımız üçün sözlə ifadə olunmayacaq qədər böyükdür.

Ölkəmizdə həyatın bütün sahələrində gerçəkləşdirdiyiniz islahatlar əsl liderə xas əzəmət və siyasi qüdrət nümunəsidir.

Zati-aliləri, qədirbilən xalqımız Sizin siyasətinizin dövlətimizin uğurlu gələcəyinə xidmət etdiyindən əmindir. Lakin bizi istəməyən, gözü götürməyən bədxah qüvvələr Azərbaycanı bu qədər inkişaf etmiş gördükcə böhtan və iftiralarla xalq-dövlət birliyini pozmağa çalışırlar. Təəssüf ki, bədxah qüvvələr Azərbaycana qarşı mübarizələrində bəzən soydaşlarımızdan da istifadə etməyə çalışırlar. Şeyxülislam olaraq bildirmək istəyirəm ki, doğru yola qədəm qoysunlar, xalqımızın, dövlətimizin mənafelərini hər şeydən uca tutsunlar.

Bu yaxınlarda 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi gündən-günə geriləyən, maddi və mənəvi iflasa uğrayan, demoqrafik böhran yaşayan Ermənistan üçün ağır zərbədir. Ordumuzun artan qüdrəti, insanlarımızın Sizə sədaqəti bədxahları narahat edir, hətta dini zəmində qarşıdurma yaratmaq, məzhəb ayrı-seçkiliyi salmaq niyyətində olan daxili və xarici qüvvələr də yox deyildir. Lakin bu cür insanlar heç nəyə nail olmayacaqlar. Allahın köməyi və Azərbaycan xalqının dəstəyi həmişə Sizinlədir, möhtərəm cənab Prezident! Sizi əmin etmək istəyirəm ki, apardığınız siyasi xəttin qələbəsi yolunda hər zaman Sizin yanınızdayıq. Biz dindarlar Sizi dövlət rəhbəri kimi Məkkədə – müqəddəs məkanda seçmişik, xeyir-dualar vermişik və seçimimizə sadiqik. Allah-Təala hər zaman haqqın tərəfindədir.

Zati-aliləri, 70 illik yubileyim və Şeyxülislamlıq fəaliyyətimin 40 illiyi münasibətilə verdiyiniz ali qərar və sərəncamınızla cənabınıza xas olan böyüklük nümayiş etdirərək, şəxsimə, Azərbaycan xalqı, dövlətçiliyimiz, müqəddəs dinimiz yolunda xidmətlərimə böyük dəyər verdiniz. Şeyxülislam olaraq 40 il ərzində dini mərkəzimizi Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə onun əmanəti kimi saxlamağa, cənab Prezident, Sizin dəstəyinizlə dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa nail olmuşuq. Bu illər ərzində idarəmizə, şəxsimə olan hörmət və diqqətiniz, özəl münasibətiniz, fəaliyyətim barədə dəyərli fikirləriniz mənim üçün ən qiymətli hədiyyə olubdur. Zati-alinizin məni dost, qardaş adlandırmasını özüm üçün ən böyük mükafat hesab edirəm və bu yüksək etimadınızla fəxr edirəm. Hər zaman, hər yerdə qürurla deyirəm ki, harada dövlət və din birliyi varsa, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı üçün təminat vardır, Heydər Əliyev yolunun davamı və Uca Yaradanımızın xeyir-duası vardır.

Möhtərəm cənab Prezident, bizim yeganə problemimiz, ağrılı yerimiz Dağlıq Qarabağ münaqişəsidir ki, onun da tezliklə Allahın köməyi və Ali Baş Komandanımızın əzmi, qətiyyəti sayəsində həllini tapacağına, torpaqlarımızın azad olunacağına əminik. Bu əziz gündə Vətən uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyirik. Allah-Təala Sizin rəhbərliyinizlə müzəffər ordumuzun əzəli torpaqlarımıza zəfər bayrağı sancmasını görməyi bizlərə nəsib etsin, İnşallah! Bu müqəddəs və mübarək Ramazan ayında Zati-alinizə və möhtərəm ailənizə ən gözəl arzularımızı yetiririk. Uca Allah hər zaman Sizi qorusun, yardımçınız olsun.

Müqəddəs Ramazan ayında etdiyimiz dualar qəbul olar, İnşallah. Bu niyyətlə hamıya - dəvət olunan mötəbər qonaqlara, dini konfessiyaların möhtərəm başçılarına, diplomatik nümayəndələrə bir daha "Xoş gəlmisiniz!" deyir, Allahdan hər birinizə xeyir-dualar diləyirəm.

Allah-Təala Azərbaycanı hifz eləsin! Amin!

* * *

***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr çıxış edərək deyib:***

-Hörmətli cənab Prezident.

Möhtərəm Şeyxülislam.

Hörmətli din xadimləri, xanımlar və cənablar.



Dini və milli ənənələrimizi yeniləmək və möhkəmləndirmək üçün Ramazan ayı günlərində bir yerə toplaşmaq əlamətdar ənənəyə çevrilib. Bu görüş Azərbaycanda yaşayan xalqların öz tarixi və dini köklərinə bağlılığının parlaq təsdiqi, milli mentalitetin, dövlətlə din arasında konstruktiv qarşılıqlı münasibətlərin əyani təzahürüdür. Bu əlamətdar günlərdə bütün Azərbaycanda, bütün şəhərlərdə və kəndlərdə ailələrdə, dostların və tanışların əhatəsində belə iftar süfrələri açılır. Bizim iştirak etdiyimiz bu iftar süfrəsi də ölkədə sabitliyin, xalq-iqtidar birliyinin, dinlərarası dialoqun yüksək səviyyəsinin və multikulturalizmin Azərbaycan modelinin uğurunun parlaq təsdiqi, cəmiyyətin inkişafının Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursunun dəyişməzliyinin sübutudur.

davamı səh. 3

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ DƏRİN MİLLİ-MƏNƏVİ TƏMƏL ÜZƏRİNDƏ MÜASİR DÖVLƏT QURMUŞUQ

əvvəli səh. 2

Azərbaycanın bütün iqtisadi, siyasi, ictimai, elmi və mədəni həyatı bu məcrada inkişaf edir. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi, bu il 15 illiyini qeyd etdiyimiz Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Cənab Prezidentlə birlikdə din xadimlərinin, hökumət nümayəndələrinin, Milli Məclisin deputatlarının, elm və mədəniyyət xadimlərinin, respublikada akkreditə olunmuş diplomatik missiya rəhbərlərinin iştirak etdikləri bugünkü iftar mərasimi də dini həyatın vəziyyətinin yüksək səviyyədə olmasının göstəricisidir. Bu, tolerantlıq ruhunun və ölkəmizin rəhbərliyinin yürütdüyü multikulturalizm siyasətinin çox güclü təzahürüdür.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi əmin edək ki, Azərbaycanın din xadimləri Azərbaycan Respublikasının rəhbəri vəzifəsində Sizin fəaliyyətinizə dərin ehtiramla yanaşır, Sizin yürütdüyünüz siyasi kursu səmimi dəstəkləyir, Sizin cansağlığınız və ümumi evimiz olan Azərbaycanın tərəqqisi üçün ürəkdən dua edirlər.

İcazə verin, Sizə Rus Pravoslav Kilsəsinin başçısı, Moskvanın və bütün Rusiyanın patriarxı zati-müqəddəsləri Kirillin fevral ayında ölkəmizə son səfəri zamanı ona göstərdiyiniz mehriban və səmimi qəbula görə onun dərin təşəkkürünü çatdırım.

Hamınızı Ramazan ayı münasibətilə təbrik edirəm.

* * *

***Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev çıxış edərək deyib:***

-Möhtərəm prezident.
Şeyx həzrətləri.
Xanımlar və cənablar.
Bacılar və qardaşlar.



Bu müqəddəs Ramazan günlərində ənənəvi iftar süfrəsi arxasında hamınızı yəhudi xalqı adından salamlayıram. Qoy Allah-Təala hamınızı öz qanadı altına alaraq şər qüvvələrdən hifz etsin. Allah-Təala tutduğunuz orucların və etdiyiniz duaların əvəzində sizə cansağlığı, xoşbəxtlik, səadət, bol ruzi-bərəkət bəxş etsin.

Müqəddəs Ramazan ayını üç hissəyə bölmək olar: əvvəli rəhmət, ikincisi bağışlanma, sonu isə cənnətə doğru. Orucun mənası isə ucalmaq, yüksəlmək deməkdir. Adəm övladı öz iradəsi ilə nəfsinə qalib gəlirsə, həm öz gözündə, həm də Allah-Təalanın gözündə ucalaraq yüksəlir.

Bu gün Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət və din münasibətlərinin səmərəli tənzimlənməsini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, Ulu Öndərin əsasını qoyduğu sağlam bünövrə, ikincisi isə Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin həmin sağlam bünövrə üzərində həyata keçirdiyi uğurlu strategiyadır.

Biz qədirbilən Azərbaycan xalqı ilə birgə bugünkü Azərbaycana, bu əmin-amanlığa, bugünkü gücə, qüdrətə görə Ulu Öndərə minnətdarlıq edib qəni-qəni rəhmət diləyirik:

Həmişə xalqına baş əydiyindən,
Ucaldın zamanın keşməkeşində.
Özün düşüncədə birümman ikən,
Özünü əritdin ümman içində.

Ulu Öndər cəmiyyətimizdəki tolerantlıq və humanizm mühitinə görə xalqımızın yaddaşına borclu olduğumuzu dönə-dönə qeyd edirdi:

Vətənə borcluyam mən,
Xalqıma borcluyam mən,
Bəlkə də bu dünyada,
Hamıya borcluyam mən.

Möhtərəm Prezident, on beş ildən çoxdur ki, Siz bu siyasi xətti uğurla davam etdirirsiniz. Sizin böyük dərəcədə humanist, insanpərvər, Vətənini və xalqını sevən, bunu bütün dünyaya bəyan edən Prezident olmağınızla fəxr edir və qürur duyuruq:

Üzündə müqəddəs Vətən qüruru,
Alnında mərd kişi ləyaqəti var.
Şəffaf gözlərində günəşin nuru,
Bir də sadəliyin təravəti var.

Möhtərəm Prezident, müəyyən müddət idi ki, Azərbaycanda Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsini arzulayırdıq. Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsi üçün ayırdığınız torpaq sahəsinə görə Sizə Azərbaycanda yaşayan bütün yəhudilər, həmçinin bütün dünya yəhudiləri adından dərin minnətdarlığımızı bildiririk. Bu vaxta qədər bütün dünyada analoqu olmayan bir hal kimi bizə bəxş etdiyiniz sinaqoqla yanaşı, tikiləcək bu mədəniyyət mərkəzi də dünyada analoqu olmayan bir hal kimi tarixə düşəcəkdir:

Arzu zirvə başındadır,
Onun min bir pilləsi var.
Hər arzunun neçə-neçə,
Böyük, kiçik çilləsi var.

Möhtərəm Prezident, Allah-Təala bütün arzularınızı böyük və kiçik çillələrdən keçirərək çin etsin. Çünki Sizin arzularınız bizim arzularımızdır.

Möhtərəm Prezident, Azərbaycanda yaşayan yəhudilər həmişə olduğu kimi, respublikanın ictimai-siyasi həyatında fəal iştirak edirlər. Respublikamız mötəbər tədbirlərə ev sahibliyi edir. Həmin tədbirlərə dünyanın hər yerindən gələn çoxsaylı qonaqlar bizim həyat tərzimiz və fəaliyyətimizlə tanış olur, öz dövlətlərinə qayıdandan sonra Azərbaycanın bugünkü həqiqətlərindən danışırlar. Lakin bu, həmişə belə olmur. Bizim inamlı qələbələrimizdən qıcıqlanan bəzi üzdəniraq qonaqlar bugünkü sülh və əmin-amanlıq şəraitində yaşamağımızdan yazmaq əvəzinə ikili standartlara əl atırlar, doğru sözümüzü demirlər və bilmək istəmirlər ki:

Doğru söz insanlığın görən gözüdür,
Doğru söz ədalətin, həqiqətin özüdür.
Müqəddəs ocağın közüdür düz söz,
Dahilər dilinin gücüdür düz söz.

Biz bu yaxınlarda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illiyini Şəhidlər xiyabanında və sonra Beynəlxalq Muğam Mərkəzində yüksək səviyyədə keçirdik. Bu tədbirin keçirilməsində, inanın Allaha, bütün respublika bizə kömək edirdi. Prezident Administrasiyası, Nazirlər Kabineti, şeyx həzrətləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və aidiyyəti nazirliklər - Müdafiə, Mədəniyyət, Gənclər və İdman Nazirlikləri, bütün icra hakimiyyətləri bizə dəstək oldular.

Möhtərəm Prezident, əlbəttə ki, bütün bunlar Azərbaycanda mümkündür:

Bir süfrənin başında,
Nemətimiz bərabər.
Hüququmuz bərabər,
Hörmətimiz bərabər.
Bir məclisdə sözümüz,
söhbətimiz bərabər.
Ana yurda borcumuz,
xidmətimiz bərabər.
Mübarəkdir bir eşqin,
Bir amalın bayramı.
Etibarın, vəfanın,
Dəyanətin bayramı.

Bu əziz günlərdə dünyasını dəyişənlərimizə və cəmi şəhidlərimizə Allah-Təala qəni-qəni rəhmət etsin. Qoy onların qəbirləri nurla dolsun. Hər bir qəhrəman Vətənin şöhrəti və yaraşığıdır. Məzarda olsalar belə, həmişə həyatdadırlar. Əlbəttə ki, atalarımız, analarımız dünyalarını dəyişiblər:

Yenə gəldim ziyarətə,
Öpdüm mərmər daşı, ata.
Sifətinə ləkə saldı,
Gözlərimin yaşı, ata.
Məndə oğul dəyanəti,
Səndə qəbir sükunəti,
Baxışların məğrur, qəti,
Mərd kişi idin, kişi ata.
Qartal vüqarlısan, dağ əzəmətli,
Ata qeyrətlisən, bacı şəfqətli.
Ay mənim qeydimə qalanım ana,
Həkimim, təbibim, loğmanım ana.
Torpaq da anasız qalmasın deyə,
Torpağın qoynuna köçür analar.

Ona görə də Allah-Təala onlara qəni-qəni rəhmət etsin. Allah-Təala onların qəbirlərini nurla doldursun.

Vətəni sevirəm deyən çox olar,
Deməyə nə var ki, dil yorulmasa.
Vətən də mənim tək ölər, yox olar,
Vətənin yolunda ölən olmasa.

Ona görə də bu gün biz cəmi şəhidlərimizi yad edirik, onlar həmişə bizim qəlbimizdə, bizim ürəyimizdədirlər.

Bir arzumuz da var ki, deyir:

Arzumu görmüşəm mən arzularda,
Arzumu yazmışam ayna sularda.
Dərdi tək çəkirəm çətində, darda,
Sevinci hamı ilə bölən olmuşam.

Bizim ən hündür bayrağımız Qarabağ göylərində dalğalananda mən bütün sevincimi, bütün xalqın sevincini Sizinlə bölüşəcəyəm.

Möhtərəm Şeyx həzrətləri:

İlham qonağındır ellər var olsun,
İlhama hər zaman Allah yar olsun,
Evində həmişə toy-bayram olsun.
Qoy bilsinlər qızıldır, incidir, ləldir İlhamın.
Sağ olun.

davamı səh. 4

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ DƏRİN MİLLİ-MƏNƏVİ TƏMƏL ÜZƏRİNDƏ MÜASİR DÖVLƏT QURMUŞUQ

əvvəli səh. 3

***Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxış edərək deyib:***

-Zati aliləri, cənab Prezident İlham Əliyev.

Möhtərəm Şeyxülislam Allahşükür Paşazadə.

Hörmətli xanımlar və cənablar.

Şadam ki, Ramazan ayı ilə əlaqədar bu il də biz hörmətli Şeyxin evində bir yerə toplaşmışıq. İcazə verin, mən, ilk növbədə, ev sahibi kimi ona burada artıq dəfələrlə hiss etdiyimiz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirim. Hörmətli Şeyxülislam, mən Azərbaycan katolikləri adından sizə xüsusilə bu il - sizin əlamətdar



70 illik yubileyiniz münasibətilə ən xoş arzularımı çatdırmaq istəyirəm. Ulu Tanrı sizi, ailənizi qorusun və sizə kömək etsin ki, həyatınız, zəhmətiniz gələcəkdə də dini dözümlülük ideyalarının möhkəmlənməsinə və bu gözəl ölkənin bütün sakinlərinin əməkdaşlığına kömək etsin.

Hörmətli cənab Prezident, mən Azərbaycan katolikləri adından bu dövlətin başçısı kimi Sizə təşəkkürümü bildirmək istəyirəm. Burada və digər yerlərdə dəfələrlə səsləndiyi kimi, Siz bütün bəşəriyyətə çox böyük töhfə verən tolerantlıq və multikulturalizm proseslərinin qarantısınız. Sizin rəhbərliyinizlə həyata keçirilən bu siyasət həm ölkəmizdə uğurla inkişaf edir, həm də bütün dünyada müsbət əks-səda doğurur.

Bu ilin fevralında Papa Fransisk Əbu-Dabiyə səfərə gəlmişdi. Bu səfərin ən mühüm hadisələrindən biri bəşəri qardaşlıq haqqında sənədin imzalanması oldu. Həmin sənəddə Papa və "Əl-Əhzar"ın ali imamı əl-Tayib birlikdə bütün insanları qardaş olmağa, bir-birinə hörmət etməyə çağırdıqlarını bəyan edirlər. Sənəddə deyilir: "Bizim zəmanəmizdə bəziləri dinə münaqişə mənbəyi kimi baxır. Biz birlikdə İslamla Xristianlıq arasında görüşün mümkünlüyünün daha bir aydın və qəti nümunəsini göstərdik. Göstərdik ki, bütün mədəni müxtəlifliyə və ənənələrin fərqliliyinə baxmayaraq, Xristian dünyası ilə İslam dünyası arasında hörmət və dialoq mümkündür. Həm Xristian dünyası, həm də İslam dünyası ümumi dəyərləri - həyatı, ailəni, dini hissləri, böyüklərə ehtiramı, gənclərin tərbiyəsini və s. dəyərləndirir və qoruyur".

Azərbaycanda olduğum müddətdə mən dəfələrlə Papanın həmin sənəddə ifadə olunan arzularının burada təcrübədə, gündəlik həyatda reallaşdığını müşahidə etmişəm. Mən azərbaycanlıların qonaqpərvərliyinə və səmimiliyinə, eləcə də onların tarixi səhvlərə və ədalətsizliyə qarşı qəhrəmancasına dözümlü və səbirli olmasına heyranam. Mən əminəm ki, bunların hamısı bütün bəşəriyyət üçün dəyərli töhfə olacaq. Mən indi də, qarşıdakı illərdə də Sizin rəhbərliyinizlə Azərbaycanın insanlar arasında sülhün, xoş münasibətlərin və əməkdaşlığın adası olaraq qalması, bütün şərəfli zəhmətkeş insanlar üçün kifayət qədər məkanın olduğu, öz vətəndaşlarının və burada yaşayanların hamısının azadlığını və ləyaqətini qoruyan ölkə kimi qalması üçün dua etmək və işləmək istəyirəm. Bizi yaradan qüdrətli Tanrı hamımıza, - öz düşüncəsinə görə bizi yerləşdirdiyi yerlərdə hər birimizə, - gələcək nəsillər üçün daha gözəl və fərəhli dünya qurmaqda kömək etsin.

Zati-aliləri, hörmətli Şeyxülislam, icazə verin, bir daha sizə ürəkdən möhkəm cansağlığı, Tanrının köməyini və bütün müsəlman qardaşlarımıza firavanlıq, inkişaf və tərəqqi arzulayım. Təşəkkür edirəm.

***Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.***

***Prezident İlham Əliyevin nitqi***

- Hörmətli Şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Xanımlar və cənablar.

Hər il olduğu kimi, mübarək Ramazan ayında Şeyx həzrətlərinin iftar süfrəsində görüşürük. Bu, gözəl ənənədir. Bu ənənə yaşayır və yaşayacaq. Bu, dövlət-din münasibətlərinin bariz nümunəsidir. Dövlət-din münasibətləri hər bir ölkə üçün xüsusi əhəmiyyətə malikdir və Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır.

Bu münasibətlərin təməlində Ulu Öndər Heydər Əliyev və Şeyx həzrətləri dayanırlar. Onların şəxsi dostluğu, bir-birilərinə olan hörməti dövlət-din münasibətlərinin inkişafına çox böyük təsir göstərmişdir. Mən onun şahidiyəm ki, Şeyx həzrətləri və Ulu Öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olmuşlar və onların xalq, Vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratmışdır.

1993-cü ilə qədər dövlət-din münasibətlərində müəyyən boşluqlar var idi. 1993-cü ildən sonra bu sahədə də bütün istiqamətlər üzrə işlər ən yüksək səviyyədə tənzimlənir. Mayın 10-da, Ulu Öndərin anadan olmasının 96-cı ildönümü günündə onun xalq, dövlət qarşısında gördüyü işlər haqqında danışdıq. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri var. Bugünkü müstəqil Azərbaycan onun əsəridir. Dövlətçiliyin əsaslarının qurulması, Azərbaycanın strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

Hörmətli Şeyx həzrətləri xalq və dövlət qarşısında böyük xidmətlər göstərir. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir. Onun çoxşaxəli beynəlxalq fəaliyyəti Azərbaycanı dünyaya tanıtdırır, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə təqdim edir və Şeyx həzrətlərinin uğurlu fəaliyyəti ölkəmizi gücləndirir.

Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var. Konstitusiyaya görə din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət-din münasibətlərinin uğurlu inkişafından böyük dərəcədə asılıdır.

Dünyada vəziyyət gərginləşir. Həm bölgəmizdə, həm dünyada yeni toqquşmalar, yeni münaqişə ocaqları yaranır, yeni risklər, təhdidlər meydana çıxır. Dünyanın gələcəyi ilə bağlı, sabitliyin gələcəyi ilə bağlı müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizi mümkün olan risklərdən qorumaqdan ibarətdir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb. Azərbaycan inkişaf yolu ilə gedir. İnkişaf dinamikamız çox müsbətdir. Əminəm ki, gələcək illərdə aparılan dərin islahatlar sayəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq. Biz dünyada İslam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, İslam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz İslamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

Müsəlman ölkələri ilə bizim ənənəvi dostluq-qardaşlıq əlaqələrimiz vardır. Bu, xarici siyasətimizdə prioritet istiqamətlərdən biridir. Azərbaycan bütün müsəlman ölkələri ilə sıx əlaqələr qura bilmişdir və beynəlxalq müstəvidə biz daim bir-birimizi dəstəkləyirik. Eyni zamanda, ikitərəfli formatda çox fəal əməkdaşlıq edirik. Bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüş əsnasında bu məsələlərlə bağlı fikir mübadiləsi apardıq.

Azərbaycan, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və bu təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verir. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox tədbirlər keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dəyərlərinin qorunması işində apardığımız siyasətə çox yüksək qiymət verir. Biz bundan sonra da təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsi işində öz səylərimizi davam etdirəcəyik. Onu da bildirməliyəm ki, 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə kontakt qrupu yaratmışdır və təşkilat bu münaqişə ilə bağlı bizim haqq işimizi daim dəstəkləyir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var - Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Biz bu həqiqətləri dünyaya çatdırırıq. Əfsuslar olsun ki, münaqişə başlanan zaman münaqişə ilə bağlı dünyada kifayət qədər məlumat yox idi. 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal altına düşmüşdür. Ölkəmizdə o vaxt yaşanan böhran, hərc-mərclik, xaos Ermənistana imkan verdi ki, bizim tarixi torpaqlarımızı zəbt etsin. O vaxt biz beynəlxalq təcriddə idik, öz səsimizi dünya ictimaiyyətinə çatdıra bilmirdik. Beləliklə, dünyada münaqişə ilə bağlı bizim əleyhimizə dərəcədə təhrif edilmiş rəy formalaşdırılmışdı. Bizim müntəzəm səylərimiz nəticəsində artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi torpağımızdır. Münaqişəyə dair çoxsaylı kitabların çap edilməsi, təqdimatların, konfransların keçirilməsi dünya ictimaiyyətinə münaqişə ilə bağlı həqiqətləri çatdırır.

davamı səh. 5

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ DƏRİN MİLLİ-MƏNƏVİ TƏMƏL ÜZƏRİNDƏ MÜASİR DÖVLƏT QURMUŞUQ

əvvəli səh. 4

Hər kəs görür ki, münaqişə ilə bağlı ikili standartlar mövcuddur. Necə ola bilər, dünyanın ali orqanı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edir, bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır və bu qətnamələr icra olunmur. Ona görə hesab edirəm ki, dünyada mövcud olan ikili standartlar ən böyük problemlərdən biridir. Münaqişənin həlli üçün biz səylərimizi davam etdirəcəyik. Biz iqtisadi gücümüzü artırırıq, siyasi çəkimiz artır, hərbi baxımdan Azərbaycan bu gün güclü ölkələr sırasındadır. Döyüş meydanında üstünlüyümüzü təmin etmişik. Vaxtilə işğal altına düşmüş torpaqların bir hissəsini azad etmişik. O torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlarda Şuşa məscidinin bənzəri olan məscid tikilmişdir, qəsəbə salınmışdır, oraya həyat qayıtmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bu gün dirçələn və inkişaf edən Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.



Biz tarixi, dini abidələrimizi qoruyuruq və burada da dövlət və din bir yerdədir. Son illərdə yüzlərlə məscid tikilmiş və ya təmir edilmişdir. Onların arasında tarixi məscidlərimiz xüsusi yer tutur. Şeyx həzrətləri qeyd etdi, Təzəpir məscidinin ətrafında salınan möhtəşəm park həm şəhərə yeni nəfəs verəcək, yəni, 20 hektar ərazidə salınan yaşıllıqlar bu zonada iqlimin yaxşılaşmasına xidmət göstərəcək, insanların rahatlığı üçün imkanlar yaradacaq, eyni zamanda, Təzəpir məscidinin əzəmətli görkəmi artıq bütün vətəndaşlara açıq olacaq. Çünki vaxtilə Təzəpir məscidinin ətrafında tikilmiş binalar imkan vermirdi ki, biz onu uzaq məsafədən seyr edək. Digər məscidlərimizin əsaslı şəkildə bərpası bizim niyyətimizi, siyasətimizi göstərir. Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin, "İmamzadə" tarixi-dini kompleksinin əsaslı şəkildə təmir edilməsi dövlət-din münasibətlərinin təzahürüdür. Heydər məscidinin tikintisi tarixi hadisədir.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən sonra iştirak etdiyim birinci tədbir Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur. Bu da təsadüfi deyil. Mən seçkilərdən sonra istənilən yerə gedə bilərdim. Məhz Hacı Cavad məscidinin yeni binasının açılışını birinci növbədə qeyd etməyimiz dövlət-din münasibətlərimizə, İslam dininə göstərdiyimiz hörmətdir.

Ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənir. Bu, artıq reallıqdır. Bütün dünya bu reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparılması üçün bir mərkəzə çevrilib. Təsadüfi deyil ki, çoxsaylı beynəlxalq tədbirlər məhz bizim təşəbbüsümüzlə ölkəmizdə keçirilir. Əgər biz bu təşəbbüsü göstərməsəydik, bu tədbirlər də keçirilməzdi.

Hörmətli Şeyx həzrətlərinin dediyi kimi, bu il Dünya Dini Liderlərinin II Zirvə Görüşü keçiriləcəkdir. Bu məsələ ilə bağlı qərar qəbul edildi. Şeyx həzrətlərinin yubileyi və fəaliyyətinin 40 illiyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəkdir. Əminəm ki, Azərbaycan müasir, öz dini, milli köklərinə bağlı olan ölkə, eyni zamanda, tolerant və multikultural dəyərləri təbliğ edən dövlət kimi öz reallıqlarını dünyaya bir daha təqdim edəcək.

Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər həm ölkəmiz, həm daxildə gedən proseslər, həm də dünya üçün böyük məna daşıyır. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri mehribanlıq, əmin-amanlıq şəraitində yaşayır. Biz bir ailə kimi yaşayırıq və bizim gücümüz birliyimizdədir. Bu tədbirlərin dünya üçün də böyük əhəmiyyəti var. Çünki bu gün dünyada dinlərarası münasibətlərlə bağlı fərqli fikirlər var, yəni, birmənalı yanaşma yoxdur. Bəzi hallarda çox təhlükəli fikirlər səslənir, çox böyük fəsadlara gətirib çıxara biləcək addımlar atılır. Ona görə bizim təşəbbüslərimiz dünya üçün böyük əhəmiyyət daşıyır. Sonuncu böyük tədbir Mədəniyyətlərarası Dialoq Forumu idi. Bu Forum çərçivəsində çox önəmli məsələlər müzakirə edilmişdir və Azərbaycanın bu sahədəki müsbət rolu bir daha qeyd olunmuşdur. Biz bu sahədə öz səylərimizi davam etdirəcəyik. Bir daha demək istəyirəm ki, bu, bizim üçün lazımdır və bu, dünya üçün lazımdır. Çünki biz istəyirik ki, dünyada proseslər müsbət məcrada getsin, dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmasın, sülh olsun, bərabərlik olsun, ədalət olsun. Müqəddəs İslam dinimiz bunu tələb edir və biz dövlət olaraq bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin olunacaq, ölkə qarşısında duran vəzifələr icra edilir və ediləcəkdir, mövcud problemlərin həlli üçün çox aydın baxışlar, konkret proqramlar var və onlar icra edilir. Bu gün Azərbaycan reallıqları belədir ki, ölkəmiz inamla, nikbinliklə irəliyə gedir, nikbinliklə yaşayır. Ölkə qarşısında duran bütün problemlərin həlli üçün bizdə həm güclü siyasi iradə, həm də cəmiyyət tərəfindən böyük dəstək var.

Hörmətli mərasim iştirakçıları, mən hörmətli Şeyx həzrətlərinə, digər din xadimlərinə mənim haqqımda, ünvanıma deyilən bütün xoş sözlərə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bütün dünya müsəlmanlarını Ramazan ayı münasibətilə təbrik etmək istəyirəm. Bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, rifah arzulayıram! Sağ olun.

* * *

***Sonra iftar süfrəsi açılıb.***

# Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın dünyaya nümunə olan hazırkı mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində dinc yanaşı yaşamalarının nəticəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün davamlı zəmin yaratmış bu etnik rəngarəngliyin qorunub saxlanmasının müstəqil dövlətçiliyin əsaslarının daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək göstərilməsi üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 24 may 2019-cu il.

# Ramazan ayının başlanması münasibətilə təbrik

Əziz həmvətənlər.

Sizi Ramazan ayının – orucluq və mənəvi yenilənmə, düşünmək və dua etmək, bağışlamaq və mərhəmət ayının başlanması münasibətilə təbrik edirəm. Bu müqəddəs ay bütün dünyada milyonlarla müsəlman üçün mənəvi kamilləşmə, nəcib və xeyirxah işlər dövrüdür.

Azərbaycanda çoxəsrlik tarixi olan mənəvi ənənələrə hörmətlə yanaşılır. Bu ənənələrin əxlaqi və etik əsasları dəyişməz qalır. Çünki yaxınlarına qayğı, xeyirxahlıq və mərhəmət bütün dövrlərdə yüksək qiymətləndirilib.

Əminəm ki, Ramazan ayı birlik və həmrəylik, hörmət və qarşılıqlı anlaşma dövrü olacaq. Qoy Ulu Tanrı bu müqəddəs günlərdə sizin bütün dualarınızı eşitsin və qəbul etsin. Sizə sülh, xoş günlər, səadət və rifah arzulayıram.

**Mehriban Əliyeva**

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA İFTAR MƏRASİMİNDƏ İŞTİRAK EDİB



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki Pir Həsən ziyarətgahında təşkil olunan iftar mərasimində iştirak ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu yaxınlarda həmin ziyarətgahda olarkən iftar süfrəsinə dəvət edilmişdilər.

İftar mərasiminə toplaşanlar Azərbaycandakı sosial-iqtisadi inkişafa, əmin-amanlığa görə təşəkkürlərini bildiriblər. Onlar Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın ölkəmizim inkişafı istiqamətində gördükləri işləri yüksək qiymətləndiriblər, belə mərasimlərin tezliklə Qarabağda da keçiriləcəyinə əminliklərini ifadə ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunun sakinləri ilə görüşməkdən şad olduğunu bildirib, müqəddəs Ramazan ayında onların dualarının qəbul olunmasını və Allah-Təalanın ölkəmizi hər zaman qorumasını arzulayıb.

İftar mərasimində "Qurani-Kərim"dən ayələr və iftar duası oxunub.

# "MÜASİR DÜNYADA ETNİK-MƏDƏNİ MÜXTƏLİFLİYİN ARTMASI VƏ ONUN TƏNZİMLƏNMƏSİNDƏ ÇOXMƏDƏNİYYƏTLİLİK SİYASƏTİNİN ƏHƏMİYYƏTİ"




May ayının 2-3-də Bakıda "Ayrıseçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı ilə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Beynəlxalq təşkilatların, dünyanın nüfuzlu və aparıcı dövlətlərinin yüksəksəviyyəli rəsmilərinin iştirak etdiyi Forum bəşəriyyəti narahat edən problemlərin həlli yollarının araşdırılmasına həsr olunub.

Mayın 3-də Forum çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə "Müasir dünyada etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasətinin əhəmiyyəti" mövzusunda sessiya keçirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, BBMM-in Himayəçilik Şurasının üzvü Leyla Əliyeva sessiyada iştirak edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov tədbirə moderatorluq edib. O, Azərbaycandakı multikultural mühit barədə məlumat verib.

Şöbə müdiri bildirib ki, etnik və mədəni müxtəliflik öz-özlüyündə müsbət fenomendir. Çünki bu, etnik və mədəni dəyərlərə söykənir. Azərbaycan multikulturalizm, tolerantlıq məkanıdır. Azərbaycan öz multikulturalizm siyasəti ilə tanınan ölkədir. Multikulturalizm ölkəmizdə dövlət siyasətinin bir hissəsidir. Bu siyasətin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Hazırda həmin siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edən BBMM-in Himayəçilik Şurasının sədri Kamal Abdullayev da qeyd edib ki, Azərbaycanda dinlərarası harmoniya, qədim tolerantlıq və multikulturalizm ənənələri mövcuddur. Əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda tarixən mövcud olan bu ənənələrin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə bildirib ki, multikulturalizmin təbliği dini dəyərlərin, Azərbaycanda yaşayan müxtəlif etnik qruplardan ibarət xalqımızın tarixinin, mədəniyyətinin təbliği olmaqla yanaşı, xalqımızın bütün dünyaya verdiyi sevgi, mərhəmət mesajıdır. M.Qurbanlı tədbir iştirakçılarını Azərbaycanın multikulturalizm ənənələri barədə məlumatlandırıb, ölkəmizdə mövcud olan müxtəlif dini icmalar, dövlət-din münasibətlərini tənzimləyən qanunvericilik bazası və bu sahədə dövlət siyasətindən danışıb.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Los-Anceles Xristian Dini Mərkəzinin rəhbəri, yepiskop Xuan Karlos Mendez, Kolumbiya ştatının Vaşinqton Hüquq Assosiasiyasının məsləhətçisi Janna Skot və başqaları da çıxış edərək ölkəmizdəki multikulturalizm mühitinin bütün dünyaya nümunə olduğunu bildiriblər.

Tədbir müzakirələrlə davam edib.

# AİLƏ DƏYƏRLƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ CƏMİYYƏTİN MƏNƏVİ SAĞLAMLIĞININ ƏSASIDIR



Mayın 15-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığının əsasıdır" mövzusunda konfrans keçirilib.

15 may - Beynəlxalq Ailə Gününə həsr edilən tədbirdə əvvəlcə dövlət-ailə siyasətinə dair sənədli film göstərilib. Daha sonra çıxış edən AQUPDK-nın sədri Hicran Hüseynova Azərbaycan dövlətinin ailə siyasəti barədə məlumat verib. Bildirilib ki, tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynayıb. Azərbaycan xalqının tarixi köklərinə, mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Bu qiymətli sərvət yad təsirlərdən qorunmaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edilməklə zənginləşdirilir. Buna görə də hazırda Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən hesab olunur.

Qeyd edilib ki, Azərbaycanda dövlət ailə siyasətinin formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Milli-mənəvi dəyərləri xalqımızın ən böyük sərvəti hesab edən Ulu Öndər bu dəyərlərin qorunmasının vacib olduğunu bütün çıxışlarında dəfələrlə qeyd edirdi.

Ulu Öndər Heydər Əliyevin ailə siyasəti Azərbaycanda bu gün də məqsədyönlü şəkildə həyata keçirilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva milli-mənəvi dəyərlərin qorunmasına böyük diqqət və qayğı göstərirlər. Prezident İlham Əliyev hər zaman qeyd edir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun maraqları, rifahı durur. Bunun bariz nümunəsi hər il dövlətimizin başçısının imzaladığı fərman və sərəncamların 65 faizinin məhz sosialyönümlü olmasıdır. Dövlətimiz daim öz vətəndaşına qayğı ilə yanaşır və onun sosial problemlərinin həllini prioritet vəzifə kimi görür, bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirilir. Ölkəmizdə aparılan bu sosial və iqtisadi quruculuq işləri ailə institutunun möhkəmlənməsinə öz töhfəsini verir.

DQİDK-nın sədri Mübariz Qurbanlı çıxışında Azərbaycanda ailə dəyərləri, ailə institutunun formalaşması və qorunub saxlanılmasında milli və dini dəyərlərin əhəmiyyəti barədə danışıb. Bildirib ki, müasir dünyanın qlobal problemlərindən biri sosial-mənəvi mühitin saflığının qorunmasıdır. Bu baxımdan ailə istər şəxsiyyət, istərsə də bütövlükdə cəmiyyət üçün əhəmiyyəti artmaqda olan ümumbəşəri dəyər, mədəni irs, əxlaqi norma və qaydaların ötürücüsü rolunu oynayır. Ailə institutunun möhkəmləndirilməsi məqsədilə milli-mənəvi dəyərlərin cəmiyyətdə düzgün təbliği, qadın və uşaq hüquqları sahəsində maarifləndirmənin təşkilində AQUPDK ilə sıx əməkdaşlığa toxunan Mübariz Qurbanlı vurğulayıb ki, din adı altında ailə dəyərlərimizə mənfi təsir etməyə çalışanlara qarşı təbliğatı gücləndirməliyik. Bütün dinlərin özündə həm əxlaqi-mənəvi, həm də tərbiyəvi xüsusiyyətləri birləşdirdiyini deyən DQİDK sədri İslamda sağlam cəmiyyətin qurulması üçün təməl qurum olan ailənin üzvlərinin elmli, bilikli olmasına böyük önəm verildiyini qeyd edib. Komitə sədri bildirib ki, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasında, cəmiyyətin saflığının və əxlaqi dəyərlərinin qorunmasında və gələcək nəsillərə ötürülməsində ailə böyük rol oynayır. Ailədəki mehribanlıq, sevgi, qarşılıqlı hörmət, həmrəylik cəmiyyətin vəhdətinə, birliyinə səbəbdir. Azərbaycan xalqının ailə dəyərlərinin tərkibində həm İslamdan, həm milli adət-ənənələrimizdən, həm də müasir günümüzün tələblərindən qaynaqlanan yüksək keyfiyyətlər var. Bu baxımdan Azərbaycan ailəsi özündə Şərqlə Qərbin yüksək dəyərlərini cəmləşdirir.

Komitə sədri, eyni zamanda ölkəmizdəki nümunəvi ailələrin gənclərə təbliğ edilməsinin vacibliyinə toxunub. "Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyev hər zaman ailə dəyərlərinə yüksək qiymət veriblər. Bu, bütün gənclərə nümunə olmalıdır", - deyə Mübariz Qurbanlı vurğulayıb.

Konfransda, həmçinin Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, BMT-nin Əhali Fondunun baş müşaviri Fərid Babayev, Təhsil nazirinin müavini Firudin Qurbanov, Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev çıxış ediblər. Çıxışlarda qeyd edilib ki, Konstitusiyamızda, qanunlarımızda ailənin mahiyyəti, ailə üzvlərinin vəzifə və hüquqları ilə bağlı xüsusi maddələr əks olunub. Eləcə də 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit edilib. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığının aradan qaldırılması haqqında qanunlar qəbul olunub.

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra ölkəmiz qadın hüquqlarının qorunması üzrə, demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə qoşulub. Ailə institutunun möhkəmlənməsi, gender bərabərliyinin təmin edilməsi dövlətimizin diqqətində olan mühüm məsələlərdən biridir. Bu istiqamətdə beynəlxalq hüquqa və ənənələrimizə söykənən hüquqi normativ aktlarımız var.

Aparılan davamlı və məqsədyönlü siyasət bütövlükdə ölkəmizdə ailə institutunun inkişafına müsbət təsir göstərib. Milli adət-ənənələrimizə və mənəvi dəyərlərimizə əsaslanan Azərbaycan ailəsi möhkəm özüllü ailə modeli kimi cəmiyyətdə mövqeyini qoruyub saxlayır.

Tədbir müzakirələrlə davam edib.

# DÖVLƏT KOMİTƏSİNDƏ "KÖNÜLLÜ FƏALİYYƏT" LAYİHƏSİNİN TƏQDİMATI KEÇİRİLİB



Mayın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) "Könüllü fəaliyyət" layihəsinin təqdimatı keçirilib.

Tədbirdə çıxış edən DQİDK-nin sədri Mübariz Qurbanlı könüllüləri səmimi salamlayaraq dövlət tərəfindən həyata keçirilən gənclər siyasəti barədə danışıb. Bildirib ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nda və dövlət başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanlarına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoyulub. Ölkəmizdə könüllülük proqramının çox yüksək səviyyədə təşkil edildiyini vurğulayan sədr Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu sahəyə göstərdiyi xüsusi diqqətdən, bu istiqamətdə həyata keçirdiyi tədbirlərdən və proqramın sferasının son illər necə genişləndiyindən söhbət açıb.

M.Qurbanlı Dövlət Komitəsində də "Könüllü fəaliyyət" layihəsinə start verildiyini, layihənin əsas məqsədinin gənclərə yeni biliklər və təcrübə əldə etməyə imkan yaratmaq olduğunu diqqətə çatdırıb.

Dövlət Komitəsinin "Könüllülük fəaliyyəti" layihəsinə qoşulduqları üçün gənclərə təşəkkürünü bildirən Mübariz Qurbanlı qeyd edib ki, 2 ay müddətində davam edəcək layihədə könüllülər DQİDK-nın bütün fəaliyyət istiqamətləri barədə məlumat əldə etmək, o cümlədən Azərbaycanda dövlət-din münasibətlərini tənzimləyən qanunvericilik bazası ilə tanış olmaq, Dövlət Komitəsinin keçirdiyi tədbirlərin təşkili prosesində iştirak etmək imkanı əldə edəcəklər.

Qeyd edək ki, könüllü kimi 2 ay müddətində fəaliyyət göstərib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə DQİDK tərəfindən xüsusi sertifikatlar veriləcək ki, bu da onların əmək fəaliyyətinə uğurlu keçid fürsəti olacaq.

# «MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR»



Mayın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Tovuz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans keçirilib.

Tovuz Rayon Heydər Əliyev Mərkəzində baş tutan tədbirdə DQİDK və RİH-in rəhbər şəxsləri, rayondan seçilmiş millət vəkili, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

Regional konfransı giriş sözü ilə açan RİH-in başçısı Məmməd Məmmədov bildirib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini sahəyə daim diqqət və qayğı göstərilir. M.Məmmədov Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını diqqətə çatdırıb. O bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Ümummilli Lider Heydər Əliyevin balanslaşdırılmış siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atır. Komitə sədri vurğulayıb ki, dövlətin dini icmalara göstərdiyi qayğı günü-gündən artmaqdadır. Böyük tarixə malik məbədlərin təmir və bərpası davam etdirilir, dini ayinlərin icrası üçün yüksək şərait yaradılır.

Çıxışında dinin siyasiləşdirilməsinin fəsadları barədə də danışan M.Qurbanlı diqqətə çatdırıb ki, terrorçuluğun dini olmadığı kimi, radikallığın da dini yoxdur. Bu baxımdan istənilən dini-ideoloji baxışları konteksdən çıxararaq zorakı və aqressiv şəkildə təqdim etmək olar. Hamımız bilirik ki, İslamın mütərəqqi dünyabaxışı, həyat fəlsəfəsi qətiyyən zorakılığı, radikallığı təbliğ etmir. İslam dini müqəddəsdir və onun əsas mahiyyəti sülhdür, dostluqdur. Onun sözlərinə görə, din adı altında fəaliyyət göstərən bəzi qüvvələr öz siyasi, yaxud digər maraqları çərçivəsində dini baxışları radikal formada təqdim edir, ekstremizmə rəvac verirlər. DQİDK-nin sədri bu cür mənfi təzahürlərin qarşısının alınmasında dini maarifləndirmənin xüsusi əhəmiyyətə malik olduğunu deyib.

Milli Məclisin deputatı Qənirə Paşayeva DQİDK-nin dini maarifləndirmə sahəsində həyata keçirdiyi tədbirlərin önəminə toxunub. İslam dininin olduğu kimi, sağlam əsaslarla gənclərə təbliğ edilməsinin vacibliyini vurğulayan millət vəkili bunun əksinin cəmiyyətdə bir çox fəsadlara səbəb olduğunu deyib. O qeyd edib ki, son dövrlər bəzi müsəlman ölkələrində baş verən münaqişələr dini radikalizm, məzhəb ayrı-seçkiliyi və xurafatdan qaynaqlanır. Ölkəmizdə milli-mənəvi və dini dəyərlərimizə yad olan ideologiyaların təbliğinin yolverilməz olduğunu dilə gətirən Q.Paşayeva cəmiyyətin düzgün dini biliklərlə məlumatlandırılmasının radikal qrupların təsirindən qorumaq baxımından əhəmiyyətli olduğunu bildirib.

* * *

Konfrans işini mayın 22-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" adlı panellə davam etdirib.

Məktəb direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə Tovuz RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Bəhruzər Rüstəmov açıb. O, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin davam etdirdiyi dövlət-din münasibətlərindən danışıb, bölgədəki dini durum barədə geniş məlumat verib.

DQİDK sədrinin müavini Gündüz İsmayılov dini radikalizm və ekstremizm haqqında məlumat verərək onlara qarşı mübarizə üsullarından danışıb. Bildirib ki, dini zəmində ayrı-seçkilik yaratmağa çalışan qüvvələrin əsas hədəfi yeniyetmə və gənclər olduğundan, bu kontingentlə sıx təmasda olan müəllimlərin üzərinə böyük məsuliyyət düşür. G.İsmayılov dini radikalizmə qarşı mübarizədə ardıcıl, sistemli və intensiv maarifləndirmənin mühüm rol oynadığını vurğulayıb. Sədr müavini qeyd edib ki, bu sahədə yad dini-ideoloji təsirlərin qarşısının alınması istiqamətində ənənəvi İslam dəyərlərinin təbliği mühüm rol oynayır.

Daha sonra Tovuz rayonu Təhsil şöbəsinin müdiri Validə Hüseynova çıxış edərək dini maarifləndirmənin gənc nəslin tərbiyəsində və yetişdirilməsində böyük önəm daşıdığından bəhs edib, keçirilən tədbirlərin gənclərin dini radikalizmə qarşı maariflənməsində önəminə diqqət çəkib.

Tədbirin sonunda DQİDK-nın sədr müavini Gündüz İsmayılov iştirakçıları maraqlandıran sualları cavablandırıb.

# DÖVLƏT KOMİTƏSİNİN RƏHBƏRLİYİ QƏRB BÖLGƏSİNDƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNİ DİNLƏYİBLƏR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu sədvəlinə uyğun olaraq mayın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Tovuz, sədrin birinci müavini Səyyad Salahlı Ağstafa, sədr müavini Gündüz İsmayılov isə Gədəbəy rayonunda vətəndaşların qəbulunu keçiriblər.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov Ümummilli Lider Heydər Əliyevin şəhərdə ucaldılan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər.





Qəbullarda, əsasən, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb.

Tovuz, Şəmkir, Ağstafa, Qazax və Gədəbəy rayonlarının sakinlərinin iştirak etdiyi qəbullar zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə Komitənin bölgə şöbəsinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR KEÇİRİLİB





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizdə səfərdə olan bir sıra qonaqlarla görüş keçirib. Belə ki, Komitə sədri mayın 1-də İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi; ABŞ-da fəaliyyət göstərən müxtəlif qurumların nümayəndələri, din xadimləri və nüfuzlu jurnalistlərdən ibarət nümayəndə heyətinin üzvləri; Beynəlxalq Bəhai İcmasının baş katibi Coşua Linkoln və icmanın Birləşmiş Millətlər Təşkilatındakı Baş təmsilçisi ilə, mayın 3-də isə İranın İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının sədri Əbuzər İbrahim Türkmən ilə görüşüb.

Görüşlər zamanı Mübariz Qurbanlı qonaqlara Azərbaycandakı dinlərarası harmoniya və qarşılıqlı anlaşma şəraiti, həmçinin dövlətimizin mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq edilməsi sahəsində həyata keçirdiyi siyasət haqqında məlumat verib. Bildirib ki, ölkəmizdə dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir-birinin dini inancına və mənəvi dəyərlərinə dərin hörmət dayanır. Dövlətin konfessiyalara münasibətində də bərabərlik prinsipi mütləq mənada qorunur. Bu prinsipi ölkəmizdə qeydiyyatdan keçməklə fəaliyyət göstərən dini icmaların fəaliyyətinin dəstəklənməsi, onların ictimai həyatın bir parçası kimi cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlərin görülməsində aydın şəkildə müşahidə etmək olar.

M.Qurbanlı diqqətə çatdırıb ki, multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Söhbət zamanı Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti barədə danışan DQİDK sədri qonaqların dini radikalizmlə mübarizə, tolerantlıq mühitinin qorunması istiqamətindəki suallarını cavablandırıb.

Respublikamıza səfərlərindən məmnunluqlarını ifadə edən qonaqlar irqçi təmayüllərin, ksenofobiya və islamofobiyanın gücləndiyi bir dövrdə Azərbaycanın sərgilədiyi tolerantlıq modelinin təqdirəlayiq olduğunu vurğulayıblar.

Qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşün sonunda qonaqlara Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.





# BAKIDA "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DİN SİYASƏTİ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB





Mayın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda din siyasəti" mövzusunda konfrans keçirilib.

Konfransda çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişib, bu zəngin xəzinənin qorunmasına dövlət səviyyəsində böyük qayğı və diqqət göstərilib, qapıları uzun müddət bağlı qalan müqəddəs ibadət ocaqları fəaliyyətini bərpa edib, onların təmiri və inşası geniş vüsət alıb. O qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Liderinin ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsində, dinlərarası dialoqun inkişafında, milli-mənəvi dəyərlərin qorunmasında, böyüməkdə olan nəsillərin sağlam ruhda tərbiyəsində, eləcə də bölgədə sülhün və sabitliyin bərqərar edilməsində müstəsna xidmətləri olub. S.Salahlı Ulu Öndərin həyata keçirdiyi siyasətdə tolerantlığın hər zaman diqqət mərkəzində olduğunu vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev qeyd edib ki, Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün İslam dünyasının tanınmış şəxsiyyətlərindən biridir. O, Azərbaycanla Şərq və Qərb ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə əvəzsiz töhfələr bəxş edib.

Gürcü Yəhudilərinin Bakı dini icmasının rəhbəri Zamir İsayev də çıxış edərək Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu tolerantlıq ideyalarından bəhs edib. Bildirib ki, 1996-cı ildən etibarən Azərbaycanda dövlət məktəbinin tərkibində yəhudi sinfi fəaliyyət göstərir. Onun sözlərinə görə, dünyanın heç bir yerində bu cür imkan yaradılmır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda dinindən və millətin asılı olmayaraq hər kəs mehriban yaşayır.

"Yeni Həyat" protestant xristian dini icmasının sədri Lyudmila İbrahimova, Bakı şəhər Molokan-Ruhani xristian dini icmasının sədri Valeri Katkov da çıxışlarında ölkəmizdə mövcud olan dövlət-din münasibətlərinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu, hazırda da bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıblar.

Sonda DQİDK-nın dini icmalar arasında Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda elan etdiyi məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Müsabiqənin nəticələrinə görə, Ruhulla Ruhullayev I, Əliəşrəf Zeynalov II, Murad Əzizov III yerlərə layiq görülüblər, Nəriman İbayev, Sevindik Əsgərli, Həzi Aslanov isə həvəsləndirici mükafatlarla təltif ediliblər.

# YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Mayın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib. Bununla bağlı keçirilən tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu tədbir iştirakçılarının diqqətinə çatdıran DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini vurğulayıb. S.Salahlı qeyd edib ki, ölkəmizdə dini dözümlülük, tolerantlıq, multikulturalizm dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Dinə dövlət qayğısından bəhs edən sədrin birinci müavini bu istiqamətdə görülən işlərin milli-mənəvi və tolerantlıq dəyərlərinin təbliği və təşviqində, eləcə də ayrı-ayrı dini konfessiyalar arasında sağlam münasibətlərin formalaşmasında müstəsna əhəmiyyət kəsb etdiyini bildirib.

O, eyni zamanda dinlərin bərabərlik, insanpərvərlik və sülh ideyalarının cəmiyyətə, xüsusilə gənclərə təbliğ edilməsinin vacib məqam olduğunu söyləyib, o cümlədən dini dəyərlərimizin sağlam əsasda, həm xurafatdan, mövhumatdan, həm də radikalizmdən uzaq şəkildə aşılanmasında dini icmaların da üzərinə böyük məsuliyyət düşdüyünü dilə gətirib. Dini icma rəhbərlərini milli-mənəvi dəyərlərin ictimaiyyətə düzgün çatdırılması işində aktiv olmağa çağırıb.

Sonda yeni qeydiyyatdan keçmiş dini icma sədrlərinə şəhadətnamələr təqdim edilib.

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"

**LƏNKƏRANDA**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Biləsuvar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə mayın 16-17-də "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.



Dindarlar, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov mövzunun əhəmiyyətindən danışıb. Şöbə müdiri qeyd edib ki, bu cür maarifləndirmə tədbirlərinin keçirilməsi xüsusi əhəmiyyətə malikdir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı təmsil etdiyi qurumun dini dəyərlərin təbliğatı istiqamətində həyata keçirdiyi tədbirlər barədə geniş məlumat verib. Görülən işlərin milli-mənəvi və islami dəyərlərin təbliği və təşviqində, dini qurumlarla dövlət təşkilatları, eləcə də ayrı-ayrı dini konfessiyalar arasında sağlam münasibətlərin formalaşmasında müstəsna əhəmiyyət kəsb etdiyini bildirib. Xurafatın bütün cəmiyyət üçün təhlükəli olduğunu qeyd edən sədrin birinci müavini dini radikalizmə qarşı mübarizədə mühüm vasitə olan dini maarifləndirmə prosesində cəmiyyətin bütün təbəqələrinin fəal olmalarının zəruriliyinə toxunub.

Azərbaycan qanunvericiliyində dini dözümlülüyü, vicdan azadlığını, dövlət-din münasibətlərini özündə əks etdirən müddəalar barədə də danışan Səyyad Salahlı bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də vətəndaşlara tolerant mühit yaradıldığını deyib. Bildirib ki, dünyada dinlər və məzhəblərarası münaqişələrin baş verdiyi dönəmdə Azərbaycan özünün tolerantlıq ənənələrini və multikulturalizm modelini dünyaya nümunə kimi təqdim edir. S.Salahlı tolerantlığın radikalizmin qarşısının alınmasında mühüm vasitə olduğunu vurğulayıb.

Lənkəran ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Asif İmanlı çıxışında qeyd edib ki, milli-mənəvi dəyərlər arasında din amili böyük əhəmiyyət kəsb edir. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu tədbir iştirakçılarının diqqətinə çatdıran natiq Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini qeyd edib.

QMİ-nin Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə çıxışında dövlətin dinə və dindarlara qayğısından bəhs edib. O, bütün dini ocaqlarda bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinin, yeni dini ibadətgahların inşasının ölkə başçısının xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin göstəricisi adlandırıb.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Ramil Baxşəliyev öz çıxışında dini radikallığın mahiyyəti ve meyarlarından söhbət açıb. Dini radikalizmə zəmin yaradan amillər barədə danışan natiq din uğrunda edilən müharibələr və ya din pərdəsi altında aparılan işğalçılıq fəaliyyətlərinin dini radikalizmin bariz örnəklərini təşkil etdiyini bildirib.

İslam dininin sülhsevərliyi, tolerantlığı təbliğ etməsindən, həmçinin zorakılığa və terrora qarşı olmasından bəhs edən "Üfüqdəki gələcək" filminin də nümayiş etdirildiyi ikigünlük seminar-müşavirə müzakirələrlə öz işini yekunlaşdırıb.

**FÜZULİDƏ**

Bu qəbildən olan növbəti ikigünlük seminar-müşavirə mayın 30-31-i DQİDK və Füzuli RİH birgə təşkilatçılığı ilə keçirilib.

Dindarlar, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Füzuli RİH başçısının müavini Gülbahar Eyvazova bildirib ki, Azərbaycanda mövcud olan bütün dinlərin nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur. G.Eyvazova deyib ki, ölkəmizdə vicdan azadlığının təmin edilməsi, dini icmalara fəaliyyətlərinin genişləndirilməsi məqsədilə dövlət tərəfindən mütəmadi olaraq qayğı göstərilir.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, xalqımızın tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır. Onun sözlərinə görə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin davamı olaraq Prezident İlham Əliyev tolerantlığı dövlət siyasəti səviyyəsinə qaldırıb.

Natiq diqqətə çatdırıb ki, dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını həm dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə, tarixi-dini abidələrin bərpasına, həm bu istiqamətdə təşkil etdiyi beynəlxalq konfranslara münasibətdə, həm də qanunvericiliyimizin mahiyyətində açıq-aydın görmək mümkündür: "Ölkəmizdə bütün dinlərə məxsus abidələr təmir və bərpa edilir, eyni zamanda yeniləri tikilir".




S.Salahlı ölkə başçısının bir neçə gün öncə Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncamını xatırladaraq, bunu dövlətin dinə və dindaralara növbəti qayğısı kimi dəyərləndirib. Dövlət Komitəsi sədrinin birinci müavini onu da deyib ki, bu Sərəncam mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə verilib.

Horadiz şəhər "Əhli-Beyt" məscidinin imamı Nəriman Nəsirov bu cür tədbirlərin keçirilməsinin vacibliyindən danışıb, rayonda dindarlara göstərilən qayğıdan bəhs edib.

Seminar-müşavirə mayın 31-də özü işini davam etdirib.

# MƏKKƏ ŞƏHƏRİNDƏ «QURANİ-KƏRİMDƏ VƏ PEYĞƏMBƏR SÜNNƏSİNDƏ MÖTƏDİLLİK VƏ MÜLAYİMLİK DƏYƏRLƏRİ»

İslam Dünyası Liqasının təşkilatçılığı ilə Müqəddəs Məkkə şəhərində "Qurani-Kərimdə və Peyğəmbər sünnəsində mötədillik və mülayimlik dəyərləri" adlı beynəlxalq konfrans keçirilib. 27-29 may tarixlərində keçirilən konfransda ölkəmizi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov təmsil edib.



Dünyanın müxtəlif müsəlman ölkələrinin dövlət qurumlarının nümayəndələri, dinşünas alimlər və ekspertlərin iştirak etdiyi beynəlxalq konfransda çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov ictimai-siyasi həyatda din amili, dini təhlükəsizlik problemləri, dini ekstremizm təhlükəsi, o cümlədən Azərbaycanda mövcud olan nümunəvi dövlət-din münasibətləri, tolerant və multikultural mühit barədə danışıb. Bildirib ki, günümüzdə xüsusilə dini ayrı-seçkilik güclənir, dini radikalizm və ekstremizm geniş vüsət alır, bəzən dini zəmində qarşıdurmaya bilərəkdən rəvac verilir. Din təkcə ictimai təfəkkürə deyil, mədəniyyətə, siyasi mövqeyə, insanların mənəvi həyatına ciddi təsir göstərən siyasi vasitəyə çevrilir. Səyavuş Heydərov bu təhlükələrin qarşısının alınmasında, radikalizm və ekstremizm ideologiyası ilə mübarizədə effektiv nəticənin əldə olunmasında güc və ya təzyiq metodlarının deyil, tolerantlıq, multikulturalizm və həmrəylik ideologiyasından istifadənin mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Dinlər və mədəniyyətlərarası dialoqa nail olmaq, sülh və əmin-amanlığı bərqərar etmək üçün bütün beynəlxalq təşkilatların, nüfuzlu dini mərkəzlərin, ən əsası ölkələrin səylərinin birləşdirilməsinin zəruriliyini diqqətə çatdıran Komitə rəsmisi bu baxımdan Azərbaycanın üzərinə düşən mənəvi borcu və şərəfli missiyanı layiqincə yerinə yetirməyə çalışdığını qeyd edib. Hazırda respublikamızın dünyada beynəlxalq təhlükəsizliyə ciddi təhdid olan dini və etnik zəmində baş verən qarşıdurmaların qarşısının alınmasında öz əməli fəaliyyəti ilə hərəkətverici qüvvəyə çevrildiyini deyən S.Heydərov bildirib ki, 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi, 10 ilini tamamladığımız "Bakı prosesi" dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışı, əməkdaşlıq və dialoqu təşviq edən qlobal xoşməramlı çağırışdır.

O, ölkəmizin dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində bütün dünyaya nümunə ola biləcək bir strategiya ortaya qoyduğunu söyləyib. Sədr müavininin sözlərinə görə, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyinin təməlində multikulturalizm, tolerantlıq, milli-mənəvi dəyərlərə hörmətlə yanaşı, güclü hüquqi baza və dövlətçilik prinsipləri dayanır. Məzhəb ayrı-seçkiliyinin tüğyan etdiyi müasir dövrdə ölkəmizdə məzhəbindən asılı olmayaraq müsəlmanların vəhdət-birgə namazı qılması dünyaya açıq sülh mesajı kimi qəbul edilməlidir. Azərbaycan bu mesajı verməklə tarixi adət-ənənələrinə olan sadiqliyini, müasir günümüzdə onları daha mükəmməl və ideal variantda davam etdirməkdə maraqlı olduğunu bir daha bəyan edir.

Qlobal mahiyyət kəsb edən problemlərə qarşı mübarizənin ümumbəşəri xarakter daşıdığını qeyd edən Səyavuş Heydərov Azərbaycanın dövlət-din siyasəti üzrə təcrübəsini bölüşməyə hazır olduğunu, eyni zamanda ölkəmizin dini radikalizm və ekstremizmlə mübarizədə beynəlxalq təşkilatlarla, o cümlədən xarici ölkələrlə əməkdaşlığı dəstəklədiyini vurğulayıb.

DQİDK-nın sədr müavini ölkələr arasında müvafiq istiqamətdə təcrübə mübadiləsinin aparılması, əməkdaşlıq perspektivlərinin müzakirə edilməsi baxımından çox faydalı platforma olan konfransın işinə uğurlar arzulayıb.

# "DİNİ EKSTREMİZM-İCTİMAİ VƏ MƏNƏVİ DƏYƏRLƏRƏ TƏHLÜKƏ MƏNBƏYİ KİMİ"



Mayın 15-də Biləsuvardakı Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Biləsuvar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini ekstremizm-ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi" mövzusunda seminar-müşavirə keçirilib.

Seminar-müşavirədə DQİDK və Biləsuvar RİH-in rəhbərliyi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, Cəlilabad, Salyan, Cəbrayıl və Neftçala rayonlarının icra və hüquq-mühafizə orqanlarının rəsmiləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Tədbir DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filminin nümayişi ilə başlayıb.

Seminar-müşavirəni giriş sözü ilə açan Biləsuvar RİH başçısı Mahir Quliyev respublikamızda hər bir inanclı insanın dini etiqad azadlığının yüksək səviyyədə təmin edildiyini diqqətə çatdırıb.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov isə öz çıxışında bildirib ki, milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Onun sözlərinə görə, gənclərimizin radikal dini təsirlərdən qorunması üçün milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunması vacibdir və Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə bu istiqamətdə mühüm addımlar atılıb. Adət-ənənələrimizə hörmət hissi, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunmasına diqqət və qayğı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.




S.Heydərov dini radikalizm, ekstremizm və onların fəsadları barədə də ətraflı məlumat verib. Diqqətə çatdırıb ki, bəzi qrupların din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına yönəlmiş pozuculuq fəaliyyətlərinə cəhdlər edilir. Lakin bu cür hallara qarşı dövlət qurumları tərəfindən mübarizə tədbirləri həyata keçirilir. Vurğulayıb ki, olduqca mürəkkəb, qlobal güclərin maraqlarının bir çox sferada toqquşduğu, habelə siyasi iddiası böyük olan dövlətlərin mübarizə meydanına çevrilən regionda yerləşən ölkəmizə qarşı bir sıra istiqamətlərdən, o cümlədən dini mövqedən təhdidlərin səngimədiyi müşahidə olunur. Bu kontekstdə ən önəmli amillərdən biri də dini təhlükəsizlik məsələsidir. Sədr müavini bildirib ki, dini təhlükəsizlik milli təhlükəsizliyin təminatında başlıca yer tutur, eyni zamanda ictimai-siyasi asayişin daha mükəmməl təminatı üçün olduqca mühümdür.

Seminar-müşavirə müzakirələrlə davam edib.

# DİNİ RADİKALİZMƏ QARŞI MÜBARİZƏ İSTİQAMƏTİNDƏ MAARİFLƏNDİRİCİ TƏDBİRLƏR DAVAM ETDİRİLİR

Mayın 11-də Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə dini ekstremizm və radikalizmlə mübarizəyə həsr olunmuş seminar-müşavirə keçirilib. DQİDK, Bakı Baş Səhiyyə İdarəsi, eləcə də Baş İdarənin tabeliyində olan tibb müəssisələrinin rəhbərlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov qeyd edib ki, bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd dini radikalizmlə mübarizə sahəsində maarifləndirmə işinin aparılmasından ibarətdir. Xaricdəki bəzi dairələr tərəfindən İslamın terrorla eyniləşdirildiyini diqqətə çatdıran S.Heydərov vurğulayıb ki, Yaxın Şərq ölkələrində gedən proseslər İslamı gözdən salmaq istəyən qüvvələrin məkrli siyasətinin nəticəsidir. Dünyada qlobal təhlükəsizlik problemlərinin əsasını dini və etnik zəmindəki münaqişələrin təşkil etdiyini bildirən sədr müavini respublikamızda dinlərarası və millətlərarası münaqişələrin baş vermədiyini bildirib. S.Heydərov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi sabitliyin mövcud olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, ölkəmiz sabitlik, tolerantlıq və multikulturalizm nümunəsidir. O, Bakıda keçirilən mədəniyyətlərarası və humanitar forumların əhəmiyyətindən də danışıb, bunu ölkəmizin, xüsusilə dövlətimizin başçısının dinlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfənin təzahürü kimi qiymətləndirib.






Daha sonra təqdimatla çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri və ölkəmizdə mövcud olan məzhəblərarası vəhdət bütün dünya üçün bir nümunədir. Natiq onu da vurğulayıb ki, Azərbaycanda müsəlmanlar ölkə əhalisinin 96%-ni təşkil edirlər. İslam dini ölkəmizdə təkcə ibadət edilləcək inanclar sistemi deyil, eyni zamanda xalqımızın mədəniyyətinin tərkib hissəsidir.

Dini ekstremizmin sosial və ictimai zərərləri, eləcə də dini radikalizmə qarşı mübarizə tədbirləri haqqında məlumat verən sədr müavini qeyd edib ki, radikal dini cərəyanların yayılması cəhdlərinin qarşısının alınması üçün milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliği düzgün aparılmalıdır. G.İsmayılov bildirib ki, müasir cəmiyyətdə dini dəyərlərin düzgün təbliğində, dini radikalizmə qarşı mübarizədə maarifçilik əsas silahdır.

Qeyd edək ki, tədbirdə Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

* * *

Mayın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) tərkibindəki "SOCAR-KBR" MMC-nin birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə din və ideoloji təhlükəsizlik məsələləri" mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, şirkətin Baş menecerinin müavini Nazim Qasımov, eləcə də müəssisənin əməkdaşları iştirak ediblər.

Dövlət Komitəsinin sədr müavini bu cür görüşlərin cəmiyyətin bütün təbəqələrini, xüsusilə ali və orta məktəbləri, strateji əhəmiyyət kəsb edən idarə və müəssisələri, hərbi hissələri, cəzaçəkmə müəssisələrini əhatə etdiyini bildirib. S.Heydərov deyib ki, bu tədbirlərin keçirilməsində əsas məqsəd cəmiyyəti, xüsusilə gəncləri dini mühitdəki tendensiyalar, xaricdən yönəlmiş təhdidlər, yad ideologiyaların respublikamıza ixracına cəhdlər barədə məlumatlandırmaq və maarifləndirməkdir. Azərbaycanın uğurlu inkişaf modelini tətbiq edən mütərəqqi yanaşmalara sahib olmaqla yanaşı, tarixinə və dəyərlərinə sadiq olan respublika kimi tanındığını bildirən sədr müavini dövlət tərəfindən dini təhlükəsizlik məsələsinə böyük önəm verildiyini, bu istiqamətdə ciddi addımlar atıldığını söyləyib. S.Heydərov ölkəmizin mürəkkəb beynəlxalq vəziyyətə, regionda mövcud olan təhdidlərə, müxtəlif səpkili təzyiqlərə, yad dini ideologiyaların idxal edilməsi cəhdlərinə baxmayaraq, güclü siyasi iradə nümayiş etdirərək dini təhlükəsizliyi təmin etdiyini və bu siyasətin hazırkı dövrdə davam etdirilməsinin son dərəcə vacib olduğunu diqqətə çatdırıb.

Ölkədə dini radikalizm meyillərinin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdən danışan DQİDK-nın sədr müavini radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı effektiv mübarizə aparılması, dini maarifçilik işinin düzgün metodlarla təşkili məsələlərindən də bəhs edib. O, həmçinin xurafatın, dini savadsızlığın yaratdığı və yarada biləcəyi fəsadlardan, eyni zamanda, bunların qarşısının alınması yollarından söz açıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ: NECƏ? NƏ ETMƏLİ?"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Xaçmaz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə mayın 21-də Xudat şəhəri Heydər Əliyev muzeyində "Dini radikalizmlə mübarizə: necə? nə etməli?" mövzusunda seminar-treninq keçirilib.

DQİDK və RİH-in əməkdaşları, din xadimləri, dindarlar və gənclərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Xaçmaz RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Ceyhun Musayev mövzunun əhəmiyyətindən danışıb. Natiq bildirib ki, dini radikalizm müasir dövrün ən böyük bəlalarındandır.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə qeyd edib ki, dini radikalizmlə mübarizənin əsas istiqamətlərindən biri düzgün maarifləndirmədir. O, təəssüflə vurğulayıb ki, hazırda dini radikalizmə ən çox gənclər məruz qalırlar. Şöbə müdiri gənclərin dini radikal qrupların təsiri altına düşməmələri üçün təhsilin və sağlam həyat tərzinin əhəmiyyətini diqqətə çatdırıb. C.Əlifzadə bildirib ki, gəncləri dini radikal qrupların təsirindən uzaq tutmaq üçün onlara dolğun məlumat vermək, həmçinin İslam dini düzgün şəkildə, olduğu kimi çatdırmaqdır.

DQİDK-nın əməkdaşı Tərxan Paşazadə "Azərbaycanda dini ekstremizmə qarşı mübarizənin məqsədləri və əsas prinsipləri" mövzusunda təqdimatla çıxış edib. O, dini ekstremizm termini, dini ekstremizmin yaranması, ona qarşı mübarizə üsullarından bəhs edib.

DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdir müavini Ramin Xudayev çıxış edərək respublikamızda dini radikalizm və ekstremizmə qarşı aparılan mübarizə metodlarından danışıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# «DÜNYƏVİ DÖVLƏTDƏ DİN VƏ TƏHSİL»

**MASALLIDA**

Mayın 13-də Masallı rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Masallı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda tədbir keçirilib.



Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-treninqi giriş sözü ilə açan Masallı RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aybəniz Qafarova gənclərin milli-mənəvi dəyərlərimizin əsasında tərbiyə olunmasının vacibliyinə diqqət çəkib. Milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə sintez edilməsinin əhəmiyyətinə toxunan A.Qafarova vurğulayıb ki, milli özünüdərk ailədə uşaqların tərbiyəsindən başlayaraq orta məktəblərdə daim diqqət mərkəzində saxlanılmalıdır.



Dini-ideoloji təhlükəsizliyin təminatına yönəlmiş təhdidlər ətrafında təqdimatla çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib ki, Azərbaycanda dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur və müxtəlif dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar. Sədr müavini vurğulayıb ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. G. İsmayılov onu da bildirib ki, Azərbaycanda dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu baxımdan Azərbaycan İlahiyyat İnstitutunun və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması ölkə başçısının Azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxladığının göstəricisidir.

Dini radikalizm və ekstremizmin törətdiyi fəsadlardan da danışan Dövlət Komitəsinin sədr müavini dini radikalizmə zəmin yaradan dini savadsızlıq, fanatizm, cahillik kimi problemlərin düzgün izahı üçün nümunələr təqdim edib. G.İsmayılov vurğulayıb ki, ibadətlə yanaşı, birliyə və həmrəyliyə böyük önəm verən İslamın vəhdət və qardaşlıq dini kimi xarakterizə olunması təsadüfi deyil. Çünki dinimizin əsas məqsədi həm də cəmiyyət, dövlət və ailə üçün faydalı olan, həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaqdır.

Daha sonra Masallı Rayon Təhsil Şöbəsinin müdiri Tariyel Əkbərov çıxış edərək dini maarifləndirmənin gənc nəslin tərbiyəsində və yetişdirilməsində böyük önəm daşıdığından bəhs edib. O, ümumtəhsil məktəblərində milli-mənəvi, o cümlədən dini dəyərlərimizlə bağlı biliklərin dərinləşdirilməsi yönündə şagirdlərin bu sahə üzrə məlumatları daha etibarlı mənbələrdən almalarının vacibliyini diqqətə çatdırıb.

**XOCAVƏNDDƏ**

Bu qəbildən olan növbəti tədbir mayın 14-də Xocavənd qəsəbəsində baş tutub. DQİDK və Xocavənd RİH-in birgə təşkilatçılığı ilə keçirilən seminar-treninqdə məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris ed--ən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələrinin iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Əfsanə Quliyeva rayondakı dini durum barədə tədbir iştirakçılarına məlumat verib, Ümummilli Lider Heydər Əliyevin dinə göstərdiyi qayğıdan bəhs edərək bu uzaqgörən siyasəti dövlət başçısı İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində görülən işlər barədə məlumat verib. Sədr müavini xalqımızın tolerantlıq ənənələrinin və dini müxtəlifliyimizin tolerant əsaslarının qorunub saxlanılmasının, Azərbaycanın əldə etdiyi multikultural nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliğinin, eyni zamanda tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanılmasına dəstəyin göstərilməsinin dövlət-din siyasətinin əsas prioritet istiqamətləri olduğunu bildirib.

DQİDK-nın sədr müavini dini biliklər deyildikdə, əsasən bütün dinlərin, müqəddəs kitabların mahiyyətinin, eləcə də dini radikalizm haqqında məlumatların nəzərdə tutulduğunu bildirib. G.İsmayılovun sözlərinə görə, gənclərə lazımi dini biliklərin sistemli şəkildə verilməməsi onların dini radikalizmin, xurafatın təsirinə düşmə ehtimalını artırır. O, "Həyat bilgisi" fənni daxilində dinlər barədə biliklərin verilməsi istiqamətində atılan addımların əsas məqsədinin hər bir kəsdə zərərli dini təbliğata qarşı "immunitet" formalaşdırmaq olduğunu söyləyib.

DQİDK-nın dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov zərərli dini cərəyanların əsas fəaliyyət metodlarından danışıb.

**ŞƏMKİRDƏ**

Analoji seminar-treninq mayın 20-də Şəmkir rayonunda keçirilib. DQİDK və Şəmkir RİH-in birgə təşkilatçılığı ilə baş tutan tədbirdə məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələrinin iştirak ediblər.

Seminar-treninqi giriş sözü ilə açan RİH başçısının müavini Fəxrəddin Vəliyev rayondakı dini durum barədə məlumat verib. Natiq ölkədə dini durumla bağlı sabitliyin qorunub-saxlanılması istiqamətində Dövlət Komitəsi tərəfindən görülən işləri, xüsusilə respublikanı əhatə edən genişmiqyaslı maarifləndirmə tədbirlərini yüksək qiymətləndirib.

Daha sonra təqdimatla çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov təmsil etdiyi qurumun dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, radikal dini cərəyanlara qarşı müvafiq tədbirlərin görülməsi, cəmiyyətdə milli-mənəvi dəyərlərin təbliği istiqamətindəki fəaliyyəti barədə məlumat verib. G.İsmayılovun sözlərinə görə, respublikamızda din sahəsində sabitlik mövcuddur, Azərbaycan konfessiyalar və məzhəblərarası münasibətlərin tənzimlənməsi baxımından nümunəvidir. Sədr müavini deyib ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən dini icmalara göstərilən qayğı, onların fəaliyyəti üçün daim geniş imkanların yaradılması dövlətin milli-mənəvi dəyərlərə olan yüksək münasibətinin bariz nümunəsidir.

Dini zəmində xurafat meyillərinin gücləndirilməsi cəhdlərindən də bəhs edən G.İsmayılov vurğulayıb ki, cəmiyyətdəki xurafat elementləri dinlə əlaqələndirilsə də, əslində, dinə heç bir aidiyyəti yoxdur. İslamda elm öyrənmək, təhsil almaq kişi və qadın fərqi qoyulmadan bütün insanlara vacib buyurulub.

**SAMUXDA**

Bu mövzuda daha bir tədbir isə mayın 23-də Samux rayonunda baş tutub. DQİDK və Samux RİH-in birgə təşkilatçılığı ilə keçirilən tədbirdə məktəb direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-treninqdə mövzu ətrafında maraqlı fikirlər səsləndirilib.

Samux RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Vüqar Tağıyev məruzəsində ölkəmizdə nümunəvi dövlət-din münasibətlərinin formalaşmasından, dövlətin din sahəsinə qayğısından danışıb.



Geniş təqdimatla çıxış edən DQİDK sədrinin müavini Gündüz İsmayılov bildirib ki, xalqımızın tarixən dini radikalizmdən uzaq olmasına baxmayaraq, müstəqilliyimizi bərpa etdikdən sonra dini durumda üzləşdiyimiz problemlərdən biri də radikalizm olub. Komitə rəsmisi qeyd edib ki, əslində, dini radikalizmə dini məsələdən daha çox bəzi dairələrin din pərdəsi altında kənar qüvvələrdən qaynaqlanan təhdid kimi yanaşmaq lazımdır. G.İsmayılov, eyni zamanda vurğulayıb ki, elm, təhsil olmayanda din xurafata çevrilir. Əgər hansısa cəmiyyətdə təhsil və dini biliklər paralel şəkildə insanlara çatdırılmırsa, xurafatın yayılması qaçılmaz olacaq. Onun sözlərinə görə, yad dini ideologiyaların təsiri altına düşənlərin dini bilgilərinin zəif olması ehtimalı böyükdür. Bu baxımdan gənclərə dinlər haqqında ümumi məlumatların verilməsi, müqəddəs kitabların mahiyyətinin izah edilməsi olduqca vacibdir.

Sonda tədbir iştirakçılarının mövzu ilə bağlı sualları cavablandırılıb.

# QISA-QISA

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Cari ay ərzində bu qəbildən olan tədbirlər:***

**1 may** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sabirabad rayon Peşə Liseyində "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK, Qax RİH və Qax Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Güllük kənd tam orta məktəbində "Milli mənəvi dəyərlərimiz və gənclərimiz" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara RİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Rayon Mərkəzi Kitabxanasında; DQİDK və Suraxanı RİH-in birgə təşkilatçılığı ilə Suraxanı rayonunda;

**2 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş şəhəri "Hacı İsmayıl" məscidi dini icmasının




birgə təşkilatçılığı ilə "Ramazan ayı ilə əlaqədar qarşıda duran vəzifələr" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan şəhər Namiq Allahverdiyev adına şəhər 1 saylı tam orta məktəbdə "Gənclərin dini radikalizm və digər zərərli vərdişlərdən qorunmasında mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Ucar şəhər 1 saylı tam orta məktəbində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran RİH və QMİ-nin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimizin qorunmasında din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və QMİ-nin birgə təşkilatçılığı ilə;

**3 may** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və QMİ-nin birgə təşkilatçılığı ilə "Ramazan ayı və qarşıda duran vəzifələr" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sahib Əliyev adına 1 saylı orta məktəbdə; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Qazax RİH-in birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lerik RİH və QMİ-nin birgə təşkilatçılığı ilə Lerik şəhər "Cümə" məscidində "Dini dəyərlər mənəvi dəyərlərimizin tərkib hissəsidir" mövzusunda;

**7 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhər "ASAN" Peşə Təhsil Mərkəzində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyevin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə;

**13 may** – DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Qaradağ rayonu Ələt qəsəbəsi Seyfulla Məmmədov adına 110 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində İslamın rolu" mövzusunda;

**14 may** – DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Qaradağ rayonu Lökbatan qəsəbəsi 233 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində İslamın rolu" mövzusunda;

**15 may** – DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Xəzər rayonu Şağan qəsəbəsi Füzuli Gözəlov adına 124 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində gənclərin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay Rayon Təhsil Şöbəsi, Gənclər və İdman Nazirliyinin Göyçay rayon şöbəsinin birgə təşkilatçılığı ilə Göyçay Gənclər Mərkəzində şəhid Sarvan Salamovun xatirəsinə həsr olunmuş "Şəhidlər unudulmur" mövzusunda;

**16 may** – DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Səbail rayonu 189-190 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində gənclərin rolu" mövzusunda; DQİDK-nın Zaqatala



bölgəsi üzrə şöbəsi, Balakən RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Surağat Qurbanov adına Katex kənd 1 saylı tam orta məktəbində "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə maarifləndirmənin əhəmiyyəti" mövzusunda;

**20 may** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Səfəralı Məmmədov adına Sərçuvar kənd tam orta məktəbində "İnsan hüquqlarının qorunmasında təhsilin rolu" mövzusunda; DQİDK və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Sabunçu rayonu 311 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində gənclərin rolu" mövzusunda;

**21 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında "Milli-mənəvi dəyərlər və insan hüquqları" mövzusunda; DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Nəsimi rayonu 159 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində gənclərin rolu" mövzusunda;

**22 may** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan RİH-in birgə təşkilatçılığı ilə Zəngilan rayonu 1 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizdə sülh amili" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və Qax Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə mənəvi dəyərlərimizin yeri və rolu" mövzusunda;

**23 may** – DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Nərimanov rayonu 82 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində gənclərin rolu" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Astara RİH-in birgə təşkilatçılığı ilə; Balakən RİH, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə A.Miraliyev adına Qazma kənd 2 nömrəli tam orta məktəbində; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində;

**24 may** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin Quba regional Mərkəzinin birgə təşkilatçılığı ilə Xaçmaz rayonu Nərəcan kənd məscidində; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Yardımlıda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin Quba Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Xaçmazda "Dini radikalizm: insan hüquq və azadlıqlarına təhlükə kimi" mövzusunda;

**25 may** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şamaxı şəhər "Cümə" məscidində;

**27 may** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan RİH-in birgə təşkilatçılığı ilə Beyləqan şəhər 2 saylı tam orta məktəbdə; Göyçay RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin birgə təşkilatçılığı ilə "Şərqin ilk demokratik Respublikası – Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunda;



**29 may** – Ağcabədi RİH və DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "İnsan Hüquqları aylığı" çərçivəsində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə şəhər 3 saylı tam orta məktəbində;

**30 may** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm, narkomaniya və erkən nikahlarla mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax RİH-in birgə təşkilatçılığı ilə YAP-ın Yevlax şəhər təşkilatında "İnsan hüquqları aylığı" ilə əlaqədar "Azərbaycanda insan hüquqlarının təmin edilməsi dövlətin ali məqsədidir" mövzusunda ; DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Nizami rayonu Namiq Həmzəyev adına 238 nömrəli tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində İslamın rolu" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirlərdə Azərbaycanda tarixən mövcud olan tolerantlıq və multikultural dəyərlərdən söz açan natiqlər Ulu



Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi sahəsində əvəzsiz xidmətlərindən bəhs ediblər. Qeyd olunub ki, məhz Ümummilli Liderin düşünülmüş siyasəti və səyləri sayəsində ölkəmizdə milli-mənəvi dəyərlərə münasibətdə yeni mərhələnin əsası qoyulub.

Həmçinin dini radikalizmi yaradan səbəblərdən, onun müasir dövrdəki təzahürlərindən söz açılıb. Vurğulanıb ki, bu mövzuda cəmiyyətlə aparılan ictimai müzakirələr radikalizm və terrorizmə qarşı mübarizədə öz müsbət təsirini göstərir. Çıxışçılar bu cür tədbirlərin Azərbaycan gəncliyinin öz qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə sadiq qalmalarına, vətənə məhəbbət, torpağa sədaqət ruhunda tərbiyə olunmalarına kömək etdiyini deyiblər. Bildirilib ki, gənclərimizin düzgün istiqamətləndirilməsində, onların sağlam düşüncəli vətəndaş kimi yetişməsində dini icmaların və din xadimlərinin üzərinə böyük məsuliyyət düşür.

Tədbirlərdə müqəddəs Ramazan ayının başlanması ilə bağlı verilən fətva, bu ay ərzində keçiriləcək tədbirlər barədə də söhbət açılıb. Bildirilib ki, din xadimləri Ramazan ayı boyu QMİ-nin xüsusi təqviminə riayət etməli, müvafiq orqanlarla mütəmadi fikir mübadiləsi aparmalıdırlar.

"İnsan hüquqları aylığı" ilə bağlı keçirilən tədbirlərdə isə əsas insan hüquqlarından sayılan dini etiqad azadlığı sahəsində görülən işlərdən danışılıb. İnsan hüquq və azadlıqlarının, o cümlədən milli azlıqların hüquqlarının müdafiəsinin dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri olduğu qeyd edilib.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

***Dövlət qeydiyyatına alınaraq Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmiş dini qurumlar***

**"Zaqatala rayonu Car kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119D-906
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Zaqatala rayonu, Car kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məmməd Şirin oğlu Şirinov

**"Salyan rayonu Qaraçala qəsəbəsi "Balaxanım" məscidi" dini icması**
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-907
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Qaraçala qəsəbə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Seymur Tərlan oğlu Abdullayev

**"Qobustan rayonu Ərəbşahverdi kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119D-908
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qobustan rayonu, Ərəbşahverdi kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Maarif Namazxan oğlu Allahverdiyev

**"Saatlı rayonu Sarıcalar kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-909
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Sarıcalar kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Qasım Elman oğlu İbişov

**"Ağdaş rayonu Güvəkənd kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119A-910
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağdaş rayonu, Güvəkənd kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İftixar Akif oğlu Zakirov

**"Lənkəran rayonu Türkəncil kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-911
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Türkəncil kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Adil Şirnəli oğlu Hüseynov

***"Salyan rayonu Pambıqkənd kəndi "İmam Zeynalabidin" məscidi" dini icması***
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-912
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Pambıqkənd kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mirsəttar Mirbaba oğlu Abbasov

***"İmişli rayonu Ağcüyür kəndi "İmam Hüseyn" məscidi" dini icması***
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119A-913
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Ağcüyür kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Hüseynağa Qaraş oğlu Həmidov

**"Saatlı rayonu Hacıqasımlı kəndi "İmam Hüseyn" məscidi" dini icması**
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-914
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Hacıqasımlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Abbas Mirhadı oğlu Abbasov

***"Hacıqabul rayonu 1-ci Paşalı kəndi Hacı Əli Qasımov adına "Cümə" məscidi" dini icması***
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119A-915
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Hacıqabul rayonu, 1-ci Paşalı kəndi, Hacı Əli Qasımov adına "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İbrahim Əli oğlu Qasımov

***"İmişli rayonu Nurulu kəndi "İmam Rza" məscidi" dini icması***
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119A-916
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Nurulu kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Nizam Bayram oğlu Məmmədov

***"Neftçala rayonu Pirəbbə kəndi "İmam Muhəmməd-Təqi" məscidi" dini icması***
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-917
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Neftçala rayonu, Pirəbbə kəndi, "İmam Muhəmməd-Təqi" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əliqulu Ağaqulu oğlu Əliyev

***"Salyan rayonu Quyçi kəndi "İmam Hüseyn" məscidi" dini icması***
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-918
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Quyçi kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elnur Arif oğlu Əskərov

***"Lerik şəhər "Cümə" məscidi" dini icması***
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-919
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik şəhəri, "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Naib Nurxan oğlu Nuriyev

***"Qobustan rayonu Çuxanlı kənd məscidi" dini icması***
Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119C-920
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qobustan rayonu, Çuxanlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Asim Tapdıq oğlu Abdullayev

davamı səh. 16

CƏMİYYƏT və DİN

№ 05 (334) / MAY 2019-cu il

## QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

əvvəli səh. 15

**Qeyri-kommersiya dini qurumlarının dövlət reyestində (Dini qurumların dövlət reyestri) edilmiş dəyişikliklər**

***"Oğuz rayonu Padar kəndi «Cümə» məscidi" dini icması***
Qeydiyyat tarixi: 28 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A4 –453
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əmrahov Qüdrət Ədil oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Dadaşov Sahib Mürsəl oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 18 aprel 2019-cu il

***"Bakı şəhəri "Alov" xristian" dini icması***
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119B –894
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Murad Oqtay oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Mehdiyev Nicat Bəxtiyar oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 29 aprel 2019-cu il

***«Masallı şəhəri «Axund Məmmədqulu» məscidi» dini icması***
Qeydiyyat tarixi: 21 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 –174
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ramazanov Firudin İbrahim oğlu, Quliyev Əliqulu Ərəstun oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Quliyev Allahverdi Əliqulu oğlu, Əhədov Taleh Abdulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Quliyev Əliqulu Ərəstun oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Cəfərov Rahib Ələkbər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 08 may 2019-cu il

***"Lənkəran rayonu Hirkan qəsəbə məscidi" dini icması***
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C – 717
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Ağalar Səyədulla oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Dəyişikliklərin qeydiyyat tarixi: 08 may 2019-cu il

***"Masallı rayonu Hacıtəpə kənd məscidi" dini icması***
Qeydiyyat tarixi: 02 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4 –462
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Ramazan İsrafil oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Cavadov Zahir Cavad oğlu, Bağışov Azad Nüsrət oğlu, Şükürov Rövşən Bayram oğlu, Əliyev Allahverdi Əliağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 08 may 2019-cu il

**Ləğv olunmuş dini qurumlar**

**"Yehovanın Şahidləri" dini icması**
Qeydiyyat tarixi: 07.02.2002-ci il
Qeydiyyat №-si: 60
"Yehovanın Şahidləri" dini icması təsisçilərinin 15.05.2019-cu il tarixli, 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 23 may 2019-cu ildə qeydə alınıb.

**Yadigar söz**

***Şarl Lui Monteskyö***
*(fransız yazıçısı)*

***Əgər biz sadəcə xoşbəxt olmağı arzulasaq, buna tezliklə nail ola bilərik. Ancaq insanlar çox vaxt başqalarından daha xoşbəxt olmağı arzulayırlar, bu isə qeyri-mümkündür.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (iyun - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:21 | 21:40 |
| 2 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:21 | 21:41 |
| 3 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:22 | 21:42 |
| 4 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:23 | 21:43 |
| 5 | 03:27 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:44 |
| 6 | 03:26 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:45 |
| 7 | 03:25 | 05:11 | 12:39 | 17:52 | 20:25 | 21:46 |
| 8 | 03:25 | 05:10 | 12:40 | 17:52 | 20:25 | 21:46 |
| 9 | 03:24 | 05:10 | 12:40 | 17:52 | 20:26 | 21:47 |
| 10 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:48 |
| 11 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:49 |
| 12 | 03:23 | 05:10 | 12:40 | 17:53 | 20:28 | 21:49 |
| 13 | 03:23 | 05:10 | 12:40 | 17:54 | 20:28 | 21:50 |
| 14 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:50 |
| 15 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:51 |
| 16 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:29 | 21:51 |
| 17 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:30 | 21:52 |
| 18 | 03:23 | 05:10 | 12:42 | 17:55 | 20:30 | 21:52 |
| 19 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:30 | 21:53 |
| 20 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 21 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 22 | 03:23 | 05:11 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 23 | 03:23 | 05:11 | 12:43 | 17:56 | 20:31 | 21:53 |
| 24 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:31 | 21:53 |
| 25 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 26 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 27 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:53 |
| 28 | 03:25 | 05:12 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 29 | 03:26 | 05:13 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 30 | 03:27 | 05:13 | 12:44 | 17:57 | 20:31 | 21:53 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## BAYRAM NAMAZININ VAXTI AÇIQLANDI




Azərbaycanda bayram namazının vaxtı açıqlanıb.
Qafqaz Müsəlmanları İdarəsindən verilən məlumata görə, Ramazan ayının başa çatması ilə əlaqədar iyunun 5-i saat 08:00-da "Əjdərbəy" məscidində, saat 09:00-da isə "Təzə Pir" məscidində bayram namazı qılınacaq.
Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə bayram namazına qatılacaq.
Qazilər Şurasının verdiyi fətvada qeyd olunur ki, Fitr bayramı (Şəvval ayının 1-i) Ayın üfüqi ərazimizdə görünməsinə əsasən iyunun 5-nə təsadüf edəcək.
Qeyd edək ki, Azərbaycanda Ramazan ayı mayın 6-da başlayıb.
İyunun 5-i və 6-sı Azərbaycanda Ramazan bayramıdır.

## SEVİLYA ŞƏHƏRİNDƏ 700 İL ƏRZİNDƏ İLK DƏFƏ MƏSCİD İNŞA OLUNACAQ

İspaniyanın "Sevilya" futbol klubunun əfsanəsi, şəhərin müsəlman icmasının üzvü Frederik Kanute sayəsində Sevilya şəhərində 700 il ərzində ilk məscid inşa olunacaq. Məscidin tikintisi üçün gərəkli olan 300 min avro vəsait keçmiş oyunçunun təşəbbüskarlığı ilə toplanıb.



F.Kanute hələ klubun oyunçusu olanda şəhərdə müsəlmanların müvəqqəti ibadət yerinin xilas edilməsinə təqribən 600 min avro ianə edib.
Sevilyada ilk məscidin tikintisi layihəsində Benjamen Mendi (Mançester Siti) və Abdulaye Dukur (Uotford) kimi futbolçular da iştirak edir.

**Baş redaktor**
**Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
**Telefon:** 492 65 23; 437 31 15
**Tel/fax:** 497 15 39
492 58 29; 437 31 15
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, **"Azərbaycan" nəşriyyatında** ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894